RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 11 (8604) BAZAR, 17 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev 39 ildən sonra Şuşaya qalib olaraq gəldi

## Müzəffər Ali Baş Komandan Azərbaycan bayrağını Qarabağın qəlbində ucaltdı

Füzuli, Cəbrayıl, Ağdam, Zəngilan və Qubadlıdan sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev növbəti səfərini Qarabağın tacı, Azərbaycan mədəniyyətinin paytaxtı olan Şuşa şəhərinə etdi. Bu həm də Azərbaycan Prezidentinin 2021-ci ildə regionlara ilk səfəri idi. Bu baxımdan Şuşanın işğaldan azad olunması 44 günlük Vətən müharibəsinin ən böyük hərbi-siyasi hadisəsi idisə, ilk daxili səfərin Şuşaya edilməsi də özlüyündə rəmzi əhəmiyyət daşıyırdı.

### İlham ƏLİYEV: "Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib!"

Prezident İlham Əliyev üçün bu səfərin yanvarın 14-də gerçəkləşməsinin ayrı rəmzi mənası da var. Düz 39 il əvvəl, 1982-ci ilin 14 yanvar tarixində Şuşada Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin açılışı olmuş və həmin tədbirdə İlham Əliyev də iştirak etmişdi.

Bu səfərin İlham Əliyev üçün xüsusi bir tarixi önəmi həm də ondan ibarətdir ki, o, son 30 ildə Şuşaya səfər edən ilk Azərbaycan Prezidentidir. İlham Əliyev həm də bu müqəddəs ünvana qalib, 44 günlük müharibənin Müzəffər Ali Baş Komandanı kimi gəlmişdi. "Bu dəfə Müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq!", - deyə İlham Əliyev Şuşadan bəyan etdi.

Bəli, Şuşa Azərbaycandır, onun əsl sahibləri geri qayıdıb. Şuşa xalqımızın elə bir möhtəşəm mədəni abidəsidir ki, düşmən onu 28 ildə erməniləşdirə bilmədi. Onun hər küçəsi bir tarix, hər daşı bir mənəvi xəzinədir, xalqımızın milli-mədəni sərvətidir. Bu şəhər 28 il yarım davam edən işğal dövründə erməniləri qəbul etmədi. Şuşa onlar üçün əvvəldən yad idi, işğal dövründə də yad olaraq qaldı. İlham Əliyevin dediyi kimi, Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib.

### Şəhərin işğalı AXC-Müsavat cütlüyünün xəyanətinin nəticəsi idi

Şuşa kifayət qədər mühüm strateji məkanda yerləşir. Şəhərin təbii relyefi onu düşmən hücumundan olduqca güclü və möhkəm bir şəkildə mühafizə edir. Ona görə 1992-ci ildə şəhərin ermənilər tərəfindən işğal edilməsi Birinci Qarabağ müharibəsinin ən ağrılı hadisəsi olmuşdu. Lakin Şuşanın işğalı Ermənistanın hərbi imkanlarının nəticəsində baş verməmişdi. Ermənistan heç vaxt Azərbaycandan güclü olmayıb və o dövrdə Şuşanın işğalı Azərbaycanda gedən siyasi çəkişmələrin, hakimiyyət uğrunda mübarizənin nəticəsi idi.

Prezident İlham Əliyev Şuşada hərbçilərlə görüşü zamanı bu barədə danışaraq AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşanın işğal olunduğunu bildirdi: "Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir.

Ardı 5-ci səh.

# Azərbaycan ilə Türkiyə arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir



Yanvarın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Telefon söhbəti zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi, əməkdaşlığımızın daim genişləndiyi bir daha vurğulanıb. Prezident İlham Əliyev Türkiyə Prezidentini işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin başlanması barədə məlumatlandırıb və artıq bu işlərdə Türkiyə şirkətlərinin fəal iştirak etdiyini məmnunluq hissi ilə qeyd edib, bunun ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət etdiyini bildirib.

Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına məlumatına görə minnətdarlığını bildirib və öz növbəsində, Türkiyə şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında bərpa və yenidənqurma işlərində iştirakından məmnunluq ifadə edib.

Dövlət başçıları Ağdamda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin tezliklə fəaliyyətə başlamasından danışıb, bu mərkəzin fəaliyyətinin uzunmüddətli sülhün təmin olunması işinə xidmət edəcəyini bildiriblər.

Türkiyə Prezidenti bundan sonra da ölkəsinin Azərbaycana dəstək verəcəyini vurğulayıb.

Dövlətimizin başçısı bununla bağlı təşəkkürünü bildirib.

***Prezidentin Mətbuat Xidməti***

# Ömrümüzün ən qürurlu ili

İnsan öz xoşbəxtliyini çox vaxt müxtəlif həyat mənzərələrində axtarır. Fikrimizcə, xalqın, dövlətin, cəmiyyətin həyatında son dərəcə əhəmiyyətli rol oynayan tarixi hadisələrə şahid olmağın özü də elə böyük xoşbəxtliyin bir formasıdır.

Əgər ötən əsrin 90-cı illərinin əvvəllərində bizi üzən, göz yaşlarımıza səbəb olan faciələrimizi, ağrı-acılarımızı, itkilərimizi bu günə qədər də ömrümüzün əzablı anları kimi xatırlayırıqsa, bundan sonrakı həyatımızda Zəfər sevinci ömrümüzə bələdçilik edəcək. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun düşmən tapdağından azad etdiyi yurd yerlərimizin azadlığının fərəhi qəlbimizi böyüdəcək. Bu şərəfli günlərə şəxsən şahid olmağımızla, bu tarixin bir parçasına çevrilməyimizlə hər zaman qürur duyacağıq.

### Sınaqlarla başlayan, zəfərlə tamamlanan il

2020-ci il ümumən bəşəriyyət üçün ağır sınaqlarla başlamışdı. Dünyanı çənginə almış koronavirus pandemiyasının çətinlikləri ölkəmizdən də yan keçməmişdi və bu çətinliklərin mühüm bir qismi hələ qalır. Eyni vaxtda iki düşmənə qarşı mübarizə aparmalı olan Azərbaycan bu düşmənlərdən birini - torpaqlarımıza göz dikən erməni daşnaklarını darmadağın etsə də, digər düşmənə qarşı mübarizə hələ də davam edir. Təbii ki, bunun çətinlikləri gündəlik həyatımızda, özümüzü və ətrafımızdakı insanları qorumaqdan ötrü məcbur olduğumuz məhdudiyyətlərdə, ölkənin sosial-iqtisadi həyatındakı inkişaf dinamikasının müəyyən qədər aşağı düşməsində müşahidə olunur. Ona görə hesab edirdik ki, bizi normal həyatımızdan, gündəlik iş və həyat vərdişlərimizdən uzaq salmış 2020-ci il hamımız üçün itirilmiş il olacaq. Amma 44 günlük Vətən müharibəsinin Zəfər sevinci, işğalda olan torpaqlarımızın geri qaytarılması ötən ili ömrümüzün ən qürurlu ilinə çevirdi. Bu tarix milli dövlətçilik salnaməmizə qızıl hərflərlə yazıldı.

Eyni zamanda ilin nəticələri göstərir ki, üzləşdiyimiz çətinliklər ölkəmizi öz inkişaf hədəflərindən yayındıra bilməyib. Azərbaycan dövləti, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə strateji inkişaf yolunda əzmlə irəliləyir. Üzləşdiyimiz sınaqlar bizi daha da möhkəmləndirir.

Ardı 4-cü səh.

# Azərbaycanın zəfəri regionun iqtisadi inkişafı üçün yeni perspektivlər yaradır

## Moskva bəyanatı həmin perspektivlərin reallaşmasına imkan verir

Son günlər dünyanın diqqətini çəkən vacib xəbərlərdən biri də Azərbaycan Prezidenti İlham Əliyevin Moskvada Rusiya Prezidenti Vladimir Putinlə ikitərəfli və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə üçtərəfli görüşləri, eləcə də həmin görüşlərin yekunu ilə bağlı üçtərəfli bəyanatın imzalanmasıdır. Sözügedən bəyanat 44 günlük müharibədən sonra ölkələr arasında siyasi deyil, iqtisadi və regional əməkdaşlıq məsələlərini nəzərdə tutan ilk sənəddir.

Moskva görüşlərinə hələ bir neçə gün qalmış KİV-də və sosial şəbəkələrdə ciddi müzakirələr açılmışdı. Ekspertlər şərhlərini, politoloqlar proqnozlarını verərək hərə öz baxış bucağından bu tədbirdə üç dövlətin gözlənti və məqsədlərini deməyə çalışırdılar.

Buna baxmayaraq, işğalçı Ermənistan aktyorluğundan qalmadı. Yerevanda baş nazirin guya Moskvaya buraxılmaması üçün yolunu kəsdilər, polislər Ermənistanın Rusiyadakı səfirliyini hiddətlənən erməni diasporundan qorumaq üçün mühasirəyə aldılar.

Erməni millətçilərinin əndazədən çıxan aqressivlik nümayiş sərgiləməsinə, Paşinyanı çarmıxa çəkməklə hədələmələrinə baxmayaraq, görüş baş tutdu. Görüşdə Azərbaycan Prezidentinin özgüvənliyi, Paşinyanın isə məğlub görkəmi diqqətdən kənarda qalmadı. Kapitulyasiya aktına gizlində imza atan baş nazirin Moskvadakı dilxor görkəmində ermənilərin daim nümayiş etdirdiyi qalib pozasından əsər-əlamət belə yox idi. Bunlar vacib məqam olsa da, görüşün, necə deyərlər, texniki tərəfi idi.

Diqqəti cəlb edən əsas məqam isə emosional çalarlardan daha çox görüşün iqtisadi müstəvidə yeni regional vəziyyətin yaranmasına səbəb olmasıdır. Regional nəqliyyat kommunikasiyalarının bərpası, sadə dillə desək, yolların açılması 44 günlük müharibədən sonra münaqişə tərəfləri arasında Rusiyanın vasitəçiliyi ilə imzalanan ilk iqtisadi razılaşmadır. O üzdən həmin razılaşma iqtisadçıların və politoloqların diqqət mərkəzindədir.

Ardı 6-cı səh.

# Azərbaycanın 2021-ci il dövlət büdcəsi Ermənistandan 4, Gürcüstandan isə 2,7 dəfə çoxdur

Azərbaycan davamlı olaraq sosial-iqtisadi qüdrətini artırır, siyasi mövqelərini möhkəmləndirir. 2021-ci ildə Azərbaycanın yeni nailiyyətlərə nail olacağına da heç bir şübhə yoxdur. Eyni zamanda atılan addımlar Azərbaycanın regionda lider ölkə statusunu daha da möhkəmlədəcəyini qətiyyətlə söyləməyə əsas verir. Bunu region ölkələrinin büdcələrinə nəzər salmaqla da aydın görmək olar.

### Regionun ən az büdcəsi Ermənistandadır

Azərbaycanın 2021-ci il dövlət büdcəsinin gəlirləri 25 milyard 427 milyon manat və ya 14 milyard 966 milyon dollar olacaq. Büdcə gəlirləri ÜDM-in 33,6 faizi həcmində olmaqla, 2020-ci ilin proqnozu ilə müqayisədə 1 milyard 303 milyon manat və yaxud 5,4 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 1 milyard 208,9 milyon manat və yaxud 5 faiz çoxdur.

2021-ci ilin dövlət büdcəsinin gəlirləri hesablanarkən koronavirus (COVID-19) pandemiyasının 2020-ci ildəki mənfi təsirinin cari ildə də davam etməsi, neft hasilatının azalmasına dair "OPEK +" sazişi, enerji bazarında baş verən dəyişikliklər, habelə beynəlxalq maliyyə qurumlarının proqnozları və ölkəmizin makroiqtisadi göstəriciləri nəzərə alınıb.

Ardı 5-ci səh.

# Su təchizatının səmərəli təşkili daim gündəmdədir

## Torpaqlarımızın işğaldan azad olunması ölkənin su ehtiyatlarının bir daha qiymətləndirilməsini zəruri etmişdir

2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə ölkənin su resurslarından səmərəli şəkildə istifadənin təmin edllməsi barədə də geniş söhbət gedib. Belə ki, keçən ildən Azərbaycanda bu məqsədlə xüsusi komissiya fəaliyyət göstərir.



Komissiya ardıcıl iş aparır və aşkar edilən nöqsanların bir hissəsi qısa müddət ərzində aradan qaldırılıb. Bununla belə iki ildir dalbadal ölkədə quraqlıq olub. Vəziyyətin cari ildə də bu cür olacağı istisna edilmir. Odur ki, növbəti suvarma mövsümündə su təchizatının səmərəli təşkilinin vacibliyi bir daha nəzərə çatdırılıb.

Torpaqlarımızın işğaldan azad edilməsi imkan verir ki, 2021-ci ilin su təsərrüfatı balansı hazırlanarkən həmin ərazilərin su ehtiyatları da qiymətləndirilsin. Ümumiyyətlə, ərazi bütövlüyünün bərpa edilməsinin nəticəsi olaraq ölkəmiz hərtərəfli dividendlər əldə edəcək və bu baxımdan su resurslarının artırılması mühüm əhəmiyyət daşıyır.

Qarabağ su ehtiyatları ilə zəngin olan bölgədir. Nəhayət, uzun fasilədən sonra bu ehtiyatların, eləcə də onlardan istifadə məsələlərinin yenidən qiymətləndirilməsi diqqət mərkəzində olacaq. Qeyd edək ki, bu regiondakı Tərtərçayın illik su axınının həcmi 577 milyon kubmetrdir. Digər çaylarda isə bu göstərici belədir: Həkəri - 341 milyon kubmetr, Qarqarçay - 54 milyon kubmetr, Quruçay - 54 milyon kubmetr, Xaçınçay - 40 milyon kubmetr, Köndələnçay - 22 milyon kubmetr. Digər nisbətən kiçik çaylar da var. İndi Azərbaycan Araz çayının ölkəmizin ərazisindən keçən hissəsinə də tam nəzarəti təmin edib.

Ardı 6-cı səh.

## "Azərbaycan Respublikasının Hərbi Əməliyyatlar Nəticəsində İşğal Olunmuş və Bununla Əlaqədar Zərər Çəkmiş Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyasının nəzdində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Agentliyin yaradılması barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyul tarixli 854 nömrəli Sərəncamının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Hərbi Əməliyyatlar Nəticəsində İşğal Olunmuş və Bununla Əlaqədar Zərər Çəkmiş Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyasının nəzdində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Agentliyin yaradılması barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyul tarixli 854 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 464) ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2021-ci il*

## "Azərbaycan Respublikasının hərbi əməliyyatlar nəticəsində işğal olunmuş və bununla əlaqədar zərər çəkmiş ərazilərinin bərpası və yenidən qurulması üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 12 iyul tarixli 471 nömrəli Fərmanının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının hərbi əməliyyatlar nəticəsində işğal olunmuş və bununla əlaqədar zərər çəkmiş ərazilərinin bərpası və yenidən qurulması üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 12 iyul tarixli 471 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 535; 2006, № 7, maddə 588; 2010, № 2, maddə 80; 2015, № 11, maddə 1301; 2017, № 1, maddə 51; 2020, № 3, maddə 230) ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2021-ci il*

## Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əsasında publik hüquqi şəxs statuslu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi yaradılsın.

2. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (bundan sonra - Agentlik) Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin hüquqi varisidir, onun hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir.

3. Müəyyən edilsin ki:

3.1. Agentlik Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi, həmçinin onların müvəqqəti saxlanılması, daşınması, zərərsizləşdirilməsi sahəsində fəaliyyət göstərən, habelə bu sahədə digər zəruri işlərin təşkilini, fəaliyyətin planlaşdırılmasını, əlaqələndirilməsini və idarə edilməsini həyata keçirən publik hüquqi şəxsdir;

3.2. Agentliyin fəaliyyətinə rəhbərliyi həyata keçirmək üçün 3 (üç) üzvdən - sədr və onun 2 (iki) müavinindən ibarət İdarə Heyəti yaradılır.

4. Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması;

4.1.3. Agentliyin İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Agentliyin yenidən təşkili və ləğvi;

4.2. Agentliyə:

4.2.1. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Agentliyin fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

6. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Agentliyin nizamnaməsinin layihəsini 15 gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.4. Agentliyin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

7.5. dövlət qeydiyyatına alındığı gündən Agentliyin inzibati bina ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün bir ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.6. Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin ləğv edilməsi ilə bağlı müvafiq tədbirlər görsün;

7.7. Agentlik dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin balansındakı əmlakın Agentliyin balansına verilməsini təmin etsin;

7.8. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik və Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik öz fəaliyyətini davam etdirsin.

9. Agentlik:

9.1. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin işçilərinin Agentlikdə müvafiq vəzifəyə təyin olunması üçün tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

9.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

10.1. bu Fərmanın 5-ci hissəsinə uyğun olaraq maliyyələşməni təmin etsin;

10.2. Agentliyin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2021-ci il*

## "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin idarəetməyə verilməsi ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Lotereyaların və idman mərc oyunlarının keçirilməsindən əldə edilən gəlirdən təyinatı üzrə istifadənin səmərəliliyinin artırılması, dövlət-özəl tərəfdaşlığı çərçivəsində qeyd edilən sahənin inkişafı üçün investisiyaların və yeni texnologiyaların cəlb edilməsi əsas prioritet istiqamətlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 9 fevral tarixli 437 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti Türkiyə Respublikasının "Demirören Şans Oyunları Yatırımları A.Ş." şirkətinin törəmə cəmiyyəti olan "YMT Sans B.V." şirkətinə müqavilə əsasında idarəetməyə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Türkiyə Respublikasının "Demirören Şans Oyunları Yatırımları A.Ş." şirkətinin törəmə cəmiyyəti olan "YMT Sans B.V." şirkəti arasında "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətini idarə etmək hüququna dair Müqavilə"nin Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 9 fevral tarixli 437 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında Əsasnamə"nin tələbləri nəzərə alınmaqla bağlanmasını iki ay müddətində təmin etsin;

2.2. bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş müqavilə bağlandıqdan sonra onu təsdiq etsin;

2.3. "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin idarəetməyə verilməsi ilə əlaqədar lotereyaların, idman mərc oyunlarının təşkili və keçirilməsi, vergitutma, malların (işlərin və ya xidmətlərin) satın alınması ilə bağlı dövlət satınalmaları, dövlətə məxsus hüquqi şəxslərin daxili və xarici borcalması, o cümlədən borcalmanın yuxarı həddi, habelə paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması sahələrində mövcud tələblərin və prosedurların sadələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarının təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş müqavilə təsdiq edildikdən sonra "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin idarəetməyə verilməsi ilə əlaqədar Türkiyə Respublikasının "Demirören Şans Oyunları Yatırımları A.Ş." şirkətinin törəmə cəmiyyəti olan "YMT Sans B.V." şirkəti ilə təhvil-təslim işlərinin beş ay müddətində həyata keçirilməsini təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2021-ci il*

## Prezidentin köməkçisi Hikmət Hacıyev Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin iclasında iştirak edib

Yanvarın 16-da Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının Rəyasət Heyətinin iclası keçirilib.






AZƏRTAC xəbər verir ki, gündəliyə uyğun olaraq, iclasda Respublika Veteranlar Təşkilatının fəaliyyətinin gücləndirilməsi barədə məsələ müzakirə edilib.

İclası giriş sözü ilə təşkilatın sədri, ehtiyatda olan general-polkovnik Tofiq Ağahüseynov açaraq qurumun fəaliyyəti barədə məlumat verib.

Prezidentin köməkçisi Hikmət Hacıyev iclasda çıxış edərək Respublika Veteranlar Təşkilatının ölkənin ictimai-siyasi həyatındakı, o cümlədən müharibə, əmək və silahlı qüvvələr veteranlarının problemlərinin həll olunmasındakı rolunu vurğulayıb, bu kateqoriyadan olan insanların dövlət qayğısı ilə əhatə edildiyini bildirib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən veteranlara göstərilən dövlət qayğısının yeni səviyyəyə qalxdığını, Respublika Veteranlar Təşkilatına müasir standartlara tam cavab verən inzibati binanın ayrıldığını, müharibə veteranlarına verilən birdəfəlik maddi yardımın və pensiyaların miqdarının ildən-ilə artırıldığını, veteranların mənzil və digər problemlərinin həll olunduğunu qeyd edib.

Hikmət Hacıyev ötən əsrin 90-cı illərinədək veteran ifadəsi dedikdə, ilk növbədə, Böyük Vətən müharibəsində iştirak edən bir qədər yaşlı insanların yada düşdüyünü, lakin həmin ifadənin əvvəlcə Birinci Qarabağ müharibəsində, daha sonra isə 44 günlük Vətən müharibəsində gəncləşdiyini vurğulayıb. O, Respublika Veteranlar Təşkilatının üzərinə yeni vəzifələrin düşdüyünü, Qarabağ uğrunda bütün döyüşlərdə iştirak etmiş şəxslərin də bu qurumun fəaliyyətinə cəlb olunmasının, onları narahat edən məsələlərin həll olunmasının vacibliyini qeyd edib.

Prezidentin köməkçisi Respublika Veteranlar Təşkilatının yeni gənc veteranlarla körpü rolu oynayacağına, onlarla daim bağlantı yaradacağına ümid edərək, təşkilatda təmsil olunan ağsaqqal və ağbirçək veteranların məsləhətlərinə hər zaman ehtiyac olduğunu diqqətə çatdırıb.

Hikmət Hacıyev Respublika Veteranlar Təşkilatının qarşısında ciddi vəzifələrin durduğunu diqqətə çatdırıb, qurumun yerlərdə fəaliyyətinin gücləndirilməsinin, veteranları narahat edən problemlərin öyrənilərək müvafiq qurumların diqqətinə çatdırılmasının, beynəlxalq veteranlar təşkilatları ilə əlaqələrin genişləndirilməsinin, veteranlarla iş sahəsində beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsinin vacibliyini vurğulayıb. O, ölkə başçısının müvafiq fərmanı ilə bir neçə gün öncə yerli icra hakimiyyətlərində Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin yaradıldığını qeyd edərək, Veteranlar Təşkilatının həmin şöbələrlə əməkdaşlığının əhəmiyyətini bildirib.

Rəyasət Heyətinin üzvləri çıxış edərək təşkilatın 2020-ci il üzrə fəaliyyətini yüksək qiymətləndirib, veteranların sosial-hüquqi müdafiəsinin gücləndirilməsi, gənclərin hərbi vətənpərvərlik, dövlətçilik ruhunda tərbiyəsinin təşkili və s. istiqamətlərdə gördükləri işləri qənaətbəxş hesab ediblər.

Daha sonra Respublika Veteranlar Təşkilatının sədri T.Ağahüseynovun səhhəti ilə əlaqədar qurumun gündəlik fəaliyyəti ilə bağlı bəzi məsələlərin daha operativ həllində çətinliklərin yarandığı qeyd olunub, onun vəzifəsindən azad olunması məqsədəuyğun hesab edilib. Rəyasət Heyətinin üzvləri tərəfindən təşkilatın sədri vəzifəsinin icrasının İkinci Dünya müharibəsi veteranı, Prezident təqaüdçüsü Fatma Səttarovaya həvalə edilməsi təklif olunub. Hər iki təklif səsə qoyularaq yekdilliklə qərar qəbul edilib.

Sonda Fatma Səttarova və Rəyasət Heyətinin digər üzvləri Respublika Veteranlar Təşkilatına göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi təşəkkürlərini çatdırıb, təmsil olunduqları qurumun ölkə başçısının çağırışlarına cavab verməsi üçün bütün bilik və bacarıqlarını sərf edəcəklərini bildiriblər.

## Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə qanvermə aksiyası keçirilib

Yanvarın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü ilə qanvermə aksiyası keçirilib. YAP İcra Katibliyində təşkil olunan qanvermə aksiyasında təxminən 300 nəfər iştirak edib.



YAP-ın Mətbuat xidmətinin rəhbəri, partiyanın Siyasi Şurasının üzvü Hüseyn Paşayev AZƏRTAC-a bildirib ki, B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankı ölkə əhalisinə müraciət edərək, respublikada qan ehtiyatlarının kifayət qədər azalması ilə bağlı məlumat yayıb. Verilən xəbərə görə, xüsusilə "mənfi" rezuslu qan ehtiyatı ilə bağlı vəziyyət qənaətbəxş deyil. Pandemiya şəraitində koronavirus xəstəliyindən əziyyət çəkən bir çox insanlarda da qana tələbatın yaranması ehtiyat fondunun azalmasında mühüm rol oynayıb. Məhz bu səbəbdən Mərkəzi Qan Bankı ölkə vətəndaşlarına müraciətində qan ehtiyatlarının artırılmasına dəstək verilməsini xahiş edib.

Hüseyn Paşayev deyib ki, Yeni Azərbaycan Partiyası Mərkəzi Qan Bankının müraciətinə dərhal reaksiya verərək bugünkü qanvermə aksiyasının keçirilməsi haqqında qərar qəbul edib. O, qeyd edib ki, partiyanın fəalları, sıravi üzvləri, könüllüləri, o cümlədən Milli Məclisdə təmsil olunan deputatları bu təşəbbüsə dəstək verərək aksiyada iştirak ediblər.

"Vətən müharibəsinin Qələbə ilə başa çatmasında canlarını qurban vermiş şəhidlərimizin ruhu qarşısında baş əyirik. Torpaq uğrunda, Vətən uğrunda qanlarını axıtmış vətəndaşlarımızın müalicəsinə dəstək verilməsi də hər şeydən öncə hər birimizin vətəndaşlıq borcudur", - deyə YAP Mətbuat xidmətinin rəhbəri söyləyib.

Hüseyn Paşayev onu da bildirib ki, Yeni Azərbaycan Partiyası əvvəllər də qanvermə aksiyaları təşkil edib. Bir müddət əvvəl YAP Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünə qoşularaq qanvermə aksiyası təşkil etmişdi. Hazırkı qanvermə aksiyası da bu humanist missiyanın davamı kimi qiymətləndirilməlidir.

## Azərbaycan Respublikasının Ermənistan Respublikasına qarşı dövlətlərarası ərizəsi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə göndərilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına müvafiq olaraq, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində zərər çəkmiş vətəndaşlarımızın hüquq və azadlıqlarının pozulmasına dair dövlətlərarası ərizə hazırlanaraq 2021-ci il yanvarın 15-də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə təqdim edilib.

AZƏRTAC xəbər verir ki, ərizənin hazırlanmasına beynəlxalq hüquq aləmində tanınmış ekspertlər və Azərbaycan Respublikasının aparıcı hüquqşünasları cəlb olunublar.

Ərizədə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və 7 ətraf rayonunun Ermənistan tərəfindən 30 ilə yaxın davam etmiş işğalı nəticəsində Azərbaycan Respublikası vətəndaşlarının yaşamaq hüququnun, şəxsi və ailə həyatına hörmət və dini etiqad azadlıqlarının, işgəncəyə və pis rəftara məruz qalmamaq, mülkiyyət və sərbəst hərəkət hüquqlarının pozulması məsələləri qaldırılır, həmçinin Azərbaycanın 3890 vətəndaşının itkin düşməsi və Ermənistanın bu şəxslərin aqibətinin araşdırılması üçün hər hansı tədbir görməməsi barədə dəlillər irəli sürülür.

Bununla yanaşı, 2020-ci ilin iyul ayında Ermənistan Respublikasının silahlı qüvvələrinin Tovuz istiqamətində hərbi təxribatı nəticəsində Azərbaycan vətəndaşlarının İnsan Hüquqları üzrə Avropa Konvensiyası ilə qorunan hüquqlarının pozulmasına dair faktlar da ərizədə öz əksini tapıb.

Azərbaycan Respublikasının şanlı Qələbəsi ilə nəticələnmiş 44 günlük müharibə zamanı Ermənistan Respublikası silahlı qüvvələrinin ölkəmizin dinc sakinlərinə qarşı qeyri-insani, beynəlxalq humanitar hüquqa, xüsusən Cenevrə konvensiyalarına zidd olan əməlləri, hərbi əməliyyatlar zonasından uzaq məsafədə yerləşən şəhər və kəndlərin, mülki infrastrukturun kasetli və fosforlu mərmilər, uzaqmənzilli ballistik raketlər ilə atəşə tutması, bunun nəticəsində 93 şəxsin, o cümlədən 12 uşağın və 28 qadının həlak olması, 423 şəxsin, o cümlədən 51 uşağın və 104 qadının yaralanması, Gəncə şəhərində çoxmənzilli 10 bina daxil olmaqla 264 evin tamamilə dağıdılması, 9294 fərdi evə və digər əmlaklara ziyan vurulması barədə sübutlar təqdim edilərək İnsan Hüquqları üzrə Avropa Konvensiyasının pozulması əsaslandırılır.

Ərizədə həmçinin Ermənistanın işğal etdiyi ərazilərdə külli miqdarda mina basdırması, şəhər və kəndlərimizi yerlə-yeksan etməsi, habelə işğaldan azad edilmiş ərazilərimizə 2020-ci il 10 noyabr tarixli kapitulyasiya aktından sonra qanunsuz silahlı birləşmələr göndərməsi səbəbindən Azərbaycan Respublikası vətəndaşlarının öz evlərinə qayıtmaq hüququndan məhrum edildiyi vurğulanır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə təqdim edilmiş sənəddə vətəndaşlarımızın pozulmuş hüquqlarının bərpası üçün Ermənistandan zəruri tədbirlərin görülməsi tələb olunur.

# Biz birlikdə güclüyük!

## Xüsusi karantin rejiminin müddətinin uzadılması və sərtləşdirilmiş karantin rejimində tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 aprel saat 06:00-dək uzadılsın.

2. Müəyyən edilsin ki:

2.1. 2021-ci il 18 yanvar saat 00:00-dan:

2.1.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarı ilə müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla və bu Qərarın 2.2-ci və 2.3-cü bəndlərində qeyd olunanlar istisna olmaqla, Azərbaycan Respublikasının bütün ərazisində digər iş və xidmət sahələrinin fəaliyyətinə icazə verilir;

2.1.2. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, habelə Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) "SMS" icazə sistemindən və "icaze.e-gov.az" portalından istifadə ləğv edilir;

2.2. 2021-ci il 25 yanvar saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində aşağıdakı iş və xidmət sahələrinin fəaliyyətinə icazə verilir:

2.2.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarı ilə müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla, ticarət obyektlərinin fəaliyyəti (iri ticarət mərkəzlərinin fəaliyyəti və ictimai iaşə obyektlərində müştərilərə yerində xidmət istisna olmaqla);

2.2.2. bərbərxanaların, gözəllik salonlarının fəaliyyəti və kosmetik xidmətlər (o cümlədən, bu sahələrdə müştərinin evində və ya digər məkanda xidmət);

2.2.3. muzey və sərgi zallarının fəaliyyəti;

2.2.4. şəhərlərarası və rayonlararası hərəkət;

2.3. 2021-ci il 1 fevral saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində ictimai iaşə obyektlərində, eləcə də restoran, kafe, çay evləri və bu kimi digər məkanlarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə müəyyən edilmiş məhdudiyyətlər və tələblər nəzərə alınmaqla, müştərilərə saat 06.00-dan 00.00-dək yerində xidmət göstərilməsinə icazə verilir.

2.4. Azərbaycan Respublikasının bütün ərazisində aşağıdakı fəaliyyətə icazə verilir:

2.4.1. 2021-ci il 18 yanvar saat 00:00-dan 2021-ci il 25 yanvar saat 00:00-dək bütün ticarət obyektləri (nəzdində ərzaq mağazası və apteklər istisna olmaqla) tərəfindən yalnız çatdırılma xidmətinin göstərilməsi (və ya onlayn satış);

2.4.2. 2021-ci il 18 yanvar saat 00:00-dan 2021-ci il 1 fevral saat 00:00-dək bütün ictimai iaşə obyektlərində, o cümlədən restoran, kafe və çay evlərində müştərilərə yalnız çatdırılma xidmətlərinin göstərilməsi (və ya onlayn satış);

2.5. 2021-ci il 18 yanvar saat 00:00-dan 2021-ci il 25 yanvar saat 00:00-dək Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, habelə Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərinin (kənd və qəsəbələr istisna olmaqla) ərazilərinə giriş-çıxış aşağıdakı qaydada həyata keçirilir:

2.5.1. aşağıdakı şəxslər xidməti vəsiqə əsasında:

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin, Azərbaycan Respublikası Xüsusi Tibb Xidmətinin, Azərbaycan Respublikası Təhlükəsizlik Şurası Katibinin Xidmətinin, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsinin əməkdaşları;

2. Azərbaycan Respublikası Milli Məclisinin deputatları və Aparatının əməkdaşları;

3. mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri və onların müavinləri (müavinlərin şəhərlərarası və rayonlararası hərəkətinə ezamiyyə vərəqələri əsasında);

4. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və Aparatının əməkdaşları (əməkdaşların şəhərlərarası və rayonlararası hərəkətinə ezamiyyə vərəqələri əsasında);

5. dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin rəhbərləri və onların müavinləri (müavinlərin şəhərlərarası və rayonlararası hərəkətinə ezamiyyə vərəqələri əsasında);

6. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşları (əməkdaşların şəhərlərarası və rayonlararası hərəkətinə ezamiyyə vərəqələri əsasında);

7. hüquq mühafizə, məhkəmə və hərbi xidmət nəzərdə tutulmuş orqanların əməkdaşları, vəkillər;

8. Azərbaycan Respublikasında akkreditasiya olunmuş diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların əməkdaşları, habelə onların yerli heyəti (Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən verilmiş akkreditasiya kartları əsasında);

9. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşları;

2.5.2. aşağıdakı şəxslər barəsində məlumatlar işəgötürən tərəfindən gücləndirilmiş elektron imzadan istifadə edilməklə, "icaze.e-gov.az" portalına daxil edildikdən sonra ezamiyyə vərəqəsi əsasında:

1. bu Qərarın 2.5.1-ci yarımbəndində göstərilən dövlət orqanları (qurumları) istisna olmaqla, digər dövlət orqanlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin əməkdaşları;

2. fəaliyyətinə icazə verilmiş özəl hüquqi şəxslərin əməkdaşları və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və onun işçiləri;

3. fəaliyyətinin davam etdirilməsinə icazə verilməyən özəl hüquqi şəxslərin mühafizəsi və texniki təhlükəsizliyinin təmin edilməsi üçün tələb olunan əməkdaşları;

4. dövlət səhiyyə orqanlarının və qurumlarının (müəssisələrinin), özəl səhiyyə müəssisələrinin əməkdaşları;

5. "ASAN Könüllüləri" İctimai Birliyi, "Aqrar İnkişaf Könüllüləri" Hərəkatı, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" tələbə-könüllüləri, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin könüllüləri;

2.5.3. yaxın qohumunun dəfnində iştirakla əlaqədar bu Qərarın 2.5-ci bəndində qeyd olunan inzibati ərazi vahidləri arasında və onların hüdudlarından kənara hərəkət etməsi üçün hər bir şəxs Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin "102" Xidməti - Zəng Mərkəzi vasitəsilə alınmış icazə əsasında;

2.5.4. beynəlxalq və ölkədaxili uçuşlara müvafiq reys üçün bileti olan şəxslərin bu Qərarın 2.5-ci bəndində qeyd olunan ərazilərin arasında və onların hüdudlarından kənara hərəkətinə onların biletləri əsasında, dövlət sərhədindən müvafiq qaydada ölkəyə daxil olan şəxslərin həmin ərazilərə gəlməsinə isə onların pasportuna vurulmuş ştamp əsasında;

2.5.5. kənd təsərrüfatı və yardımçı sahələrdə fəaliyyət göstərən hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin qeyd olunan sahələrdə fəaliyyət göstərəcək əməkdaşlarının (nəqliyyat vasitələri ilə birgə) şəhərlərarası, rayonlararası hərəkətinə onlar barədə məlumatlar gücləndirilmiş elektron imza vasitəsilə "icaze.e-gov.az" portalına daxil etdikdən sonra yol verilir.

3. Bu Qərarda nəzərdə tutulmuş qaydada şəxslərin hərəkəti zamanı şəxsiyyəti təsdiq edən sənədlərinin üzərlərində olması məcburidir.

4. Bu Qərarın tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

5. Bu Qərarla müəyyən edilmiş tələblərə riayət olunmasına nəzarət Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir.

6. Bu Qərara uyğun olaraq fəaliyyətinə icazə verilmiş sahələrdə fəaliyyət göstərən özəl hüquqi şəxslərin əməkdaşları və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və onların işçilərinin barəsində məlumatların işəgötürən tərəfindən gücləndirilmiş elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edilməsinə nəzarət Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən həyata keçirilir və "icaze.e-gov.az" portalı vasitəsilə icazənin alınması üçün yanlış məlumatın daxil edilməsi halları aşkar edildikdə, bu barədə məlumatlar məsuliyyət tədbirlərinin görülməsi üçün aidiyyəti üzrə təqdim edilir.

7. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddələr 1209, 1231, № 10, maddələr 1274, 1275, 1278, 1283, 1298, 1314, 1315; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 noyabr tarixli 443 nömrəli, 19 noyabr tarixli 450 nömrəli, 5 dekabr tarixli 484 nömrəli, 8 dekabr tarixli 488 nömrəli və 25 dekabr tarixli 511 nömrəli qərarları) 1.1-ci bəndində "31 yanvar" sözləri "1 aprel" sözləri ilə əvəz edilsin.

8. "Azərbaycan Respublikasında 2020-ci il dekabrın 14-dən xüsusi karantin rejiminin sərtləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 dekabr tarixli 488 nömrəli Qərarının 1-8-ci və 10-cu hissələri ləğv edilsin.

9. "Azərbaycan Respublikasında 2020-ci il dekabrın 14-dən xüsusi karantin rejiminin sərtləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 dekabr tarixli 488 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 dekabr tarixli 509 nömrəli Qərarı ləğv edilsin.

10. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında nəzərdə tutulan məhdudiyyətlər bu Qərara zidd olmayan hissədə qüvvəsini saxlayır.

11. Bu Qərar 2021-ci il yanvarın 18-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Bakı şəhəri, 16 yanvar 2021-ci il*

## Azərbaycanda vaksinasiyanın birinci mərhələsi yanvarın 18-də, ikinci mərhələ isə fevralın 1-də başlayacaq




Azərbaycanda koronavirusa qarşı vaksinasiya Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzindədir. Azərbaycan vaksinasiyaya başlayan ilk ölkələr sırasındadır. Dünyada əksər ölkələr hələ vaksinasiyaya başlamayıb. Eyni zamanda Azərbaycan ən yüksək keyfiyyətli vaksinlərin əldə edilməsinə nail olub.

AZƏRTAC xəbər verir ki, bunu Operativ Qərargahın yanvarın 16-da keçirdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümov deyib.

Şahmar Mövsümov bildirib ki, yanvarın 18-dən vaksinasiya başlayacaq və ilk olaraq tibb işçiləri vaksinasiyaya cəlb olunacaq. Bu proses təqribən iki həftə davam edəcək. Növbəti mərhələdə - fevralın 1-dən yaşı 65-dən yuxarı olan vətəndaşların vaksinasiya edilməsinə başlanılacaq.

* * *

Prezidentin köməkçisi qeyd edib ki, dekabrın 14-dən tətbiq olunan sərt karantin rejimi öz müsbət nəticələrini verib. Hazırda vaksinasiya prosesi önəmlidir. Yoluxma əmsalının 31 faizdən 5 faizə enməsi müəyyən yumşalmalara getməyə əsas verir. Biz bir neçə mərhələdən ibarət yumşalma prosesinə start veririk.

## İlkin mərhələdə səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər, hüquq mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyət peyvənd olunacaq

Vaksinasiya strategiyasında COVID-19 infeksiyası əleyhinə vaksinasiya ilə əhatə olunan əhali qrupları sosial cəhətdən və tibbi cəhətdən yüksək risk qrupu olaraq ayrılır. Sosial cəhətdən yüksək risk qrupuna səhiyyə işçiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular, təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət", "DOST" mərkəzləri, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorları və provayderlərin, poçt sahəsində, bank sektorunda birbaşa əhali ilə təmasda olan işçilər aiddirlər.

Tibbi cəhətdən yüksək risk qrupuna yaşı 65-dən yuxarı olan, yəni yaşlı əhali, tənəffüs sisteminin xroniki xəstəlikləri, xroniki hemodializ xəstələri, II tip şəkərli diabetdən əziyyət çəkən 50 yaşdan yuxarı əhali, 18 yaşından yuxarı piylənmədən əziyyət çəkənlər aiddir.

AZƏRTAC xəbər verir ki, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Səhiyyə Nazirliyinin Səhiyyənin təşkili şöbəsinin müdiri Teymur Musayev söyləyib.

O bildirib: "Vaksinasiya strategiyasının icra mərhələləri üzrə əhali qruplarına gəlincə, ilkin mərhələdə səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər, hüquq mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyət peyvənd olunacaq.

İkinci mərhələdə tibbi cəhətdən yüksək riskli olanlar - tənəffüs sistemi, hemodializ, şəkərli diabet, piylənmə kimi xroniki xəstəlikləri olanlar, 50 yaşdan yuxarı olan və ən az bir xroniki xəstəlikdən əziyyət çəkənlər, təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət", "DOST" mərkəzləri, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorları və provayderlərin, poçt sahəsində, bank sektorunda birbaşa əhali ilə təmasda olan işçilər, yüksəkriskli şəraitli işlərdə çalışan şəxslər - cəmiyyətin fəaliyyəti üçün həyati vacib sahələrdə çalışan və əhəmiyyətli dərəcədə daha yüksəkriskli sahələrdə çalışan - milli və regional təhlükəsizlik, ədliyyə, maliyyə və s. sahələrdə çalışanlar peyvəndlənəcəklər".

* * *

Ölkə üzrə vaksinlərin saxlanma məntəqələri demək olar ki, bütün rayonlarda mövcuddur. Vaksinasiya prosesi üçün infrastruktur tam hazır vəziyyətdədir.

Şuşada da belə bir məntəqə qurulur və yaxın zamanlarda fəaliyyət göstərəcək.

* * *

Pandemiya davam etdiyi müddətdə bir çox sərt karantin tədbirləri və müalicə metodları tətbiq edilsə də, ona qarşı güclü mübarizə vasitələri hələ hazır deyil.

Onun sözlərinə görə, ölkənin və dünyanın pandemiya ilə mübarizədə uğur qazana bilməsi üçün əhalinin təxminən 60 faizində virusa qarşı immunitet formalaşmalıdır: "Bunun bir hissəsi yoluxub sağalmış şəxslərdə, digər hissəsi isə peyvənd olunanlarda formalaşır. Bu şəraitdə epidemioloji vəziyyətə yumşaldılmış karantin tədbirləri və əhalinin hədəf qruplarının vaksinasiyası ilə nəzarət etmək mümkündür".

* * *

COVID-19 əleyhinə vaksinlərin alınması imkanları iki istiqamətdədir. Birinci istiqamət çoxtərəfli danışıqlar və COVAX təsisatında iştirakdır. İkinci istiqamət isə birbaşa vaksin istehsalçıları ilə ikitərəfli danışıqlar əsasında peyvəndlərin alınmasıdır.

2021-ci ildə ölkəmizə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən tövsiyə olunan vaksinlərdən 2 milyon doza gətiriləcək. İkitərəfli danışıqlarda isə əldə edilmiş nəticə "Sinovac" şirkətinin vaksininin Azərbaycana gətirilməsidir.

"Sinovac" vaksini ənənəvi, etibarlı və sınanmış inaktiv platformada hazırlanır: "Yüksək qoruyuculuq və uğurlu sınaq nəticələri var. Saxlanma şəraiti, çatdırılma və tətbiq şərtləri, "soyuq zəncir" sistemi tələbi əlverişlidir. Ölkəmizdə illər boyu mövcud olan infrastruktur imkan verir ki, bu vaksinləri ölkənin ən ucqar nöqtəsinə çatdırıb tətbiq edək. Sifariş olunmuş dörd milyon doza "Sinovac" şirkətinin vaksini öncə Türkiyəyə gətiriləcək. Orada laboratoriyalarda standartlara uyğunluğu yoxlanıldıqdan və qablaşdırıldıqdan sonra bir neçə partiya ilə Azərbaycana göndəriləcək. Vaksinin Türkiyədəki klinik sınaq nəticələrinə əsasən onun virusla mübarizədə 91,25 faiz effektiv olduğu müəyyən edilib. Vaksin vurulan könüllülərin 2,5 faizində çox yüngül baş ağrısı, 2,5 faizində isə yorğunluq kimi yan təsirlər qeydə alınıb. Bu vaksin qoruyucu və təhlükəsizdir. Türkiyə "Sinovac" şirkətindən 50 milyon doza vaksin sifariş edib".

## Operativ Qərargah: Xüsusi karantin rejiminin müddətinin aprelin 1-dək uzadılmasına qərar verilib

### Sərtləşdirilmiş xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin bir qismi yumşaldılır

Dünyada, o cümlədən Azərbaycan ərazisində yeni növ koronavirus (COVID-19) xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilib, virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədi ilə ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin 2021-ci il 1 aprel saat 06:00-dək uzadılmasına qərar verilib. Bu barədə AZƏRTAC-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Eyni zamanda bir sıra ölkələrdə və Azərbaycanda xəstəliyin yayılma dinamikasında müəyyən stabillik müşahidə olunduğundan sərtləşdirilmiş xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin bir qisminin 2021-ci il 18 yanvar saat 00:00-dan yumşaldılması qərara alınıb.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, 2021-ci il 18 yanvar saat 00:00-dan etibarən:**

- Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərində yaşayış yerini və olduğu yeri "SMS" icazə, "icaze.e-gov.az" portalı və xidməti vəsiqə əsasında tərk etmək sistemi ləğv olunur.

**2021-ci il 25 yanvar saat 00:00-dan etibarən ölkə ərazisində aşağıdakı iş və xidmətlərin fəaliyyətinə icazə verilir:**

- *ticarət obyektlərinin fəaliyyəti (ictimai iaşə obyektləri, kafe, çay evləri və bu kimi məkanlarda müştərilərə yerində xidmət və iri ticarət mərkəzlərinin, "Mall"ların fəaliyyəti istisna olmaqla);*
- *bərbərxanaların, gözəllik salonlarının fəaliyyəti və kosmetik xidmətlər (o cümlədən bu sahələrdə müştərinin evində və ya digər məkanda xidmət);*
- *muzey və sərgi zallarının fəaliyyəti;*
- *şəhərlərarası və rayonlararası hərəkət.*

**2021-ci il 1 fevral saat 00:00-dan etibarən ölkə ərazisində ictimai iaşə obyektləri, eləcə də restoran, kafe və çay evləri və bu kimi digər məkanlarda müştərilərə saat 06:00-dan 00:00-dək yerində xidmətlər bərpa olunur.**

Fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində pandemiya dövrü ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə müəyyən edilmiş məhdudiyyət və tələblərə ciddi riayət olunmalıdır.

2021-ci il 18 yanvar saat 00:00-dan 25 yanvar saat 00:00-dək Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisinə, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərinin ərazilərinə (kənd və qəsəbələr istisna olmaqla) giriş-çıxışa Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada müvafiq təşkilatların əməkdaşlarına xidməti vəsiqə, ezamiyyə vərəqəsi, diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların əməkdaşlarına isə müvafiq akkreditasiya kartları əsasında, habelə Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilən digər şəxslərin qeyd olunan ərazilərə giriş-çıxışına həmin şəxslər barəsində məlumatlar işəgötürən tərəfindən gücləndirilmiş elektron imzadan istifadə edilməklə "icazə.e-gov.az" portalına daxil edildikdən sonra ezamiyyə vərəqəsi əsasında icazə veriləcəkdir. Yaxın qohumunun dəfnində iştirakla əlaqədar Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərləri və Abşeron rayonu, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzləri (kənd və qəsəbələr istisna olmaqla) arasında və onların hüdudlarından kənara hər bir şəxs Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin "102" Xidməti - Zəng Mərkəzi vasitəsilə alınmış icazə əsasında hərəkət edə bilər.

2021-ci il 18 yanvar saat 00:00-dan 25 yanvar saat 00:00-dək beynəlxalq və ölkədaxili uçuşlara müvafiq reys üçün bileti olan şəxslərin Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərləri və Abşeron rayonu, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzləri (kənd və qəsəbələr istisna olmaqla) arasında və onların hüdudlarından kənara hərəkətinə onların biletləri əsasında, dövlət sərhədindən müvafiq qaydada ölkəyə daxil olan şəxslərin həmin ərazilərə gəlməsinə isə onların pasportuna vurulmuş ştamp əsasında icazə verilir.

Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət hazırda qüvvədə qalır.

Bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyət, eləcə də digər qadağalar isə xüsusi karantin rejiminin sonunadək tətbiq olunacaqdır.

Qeyd edək ki, xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskalardan istifadə məcburidir. Həmçinin sosial məsafə, tibbi maska və digər qoruyucu vasitələrdən istifadə etmək zəruridir.

## Yaqut QARAYEVA: "Peyvəndi vurdurandan sonra özümüzü qorumağa davam etməliyik"

Vaksin vurduran insan yaxınları üçün təhlükə yarada bilməz. Vaksin vurulan kimi insanı qorumur. Bu, ümumi vaksinasiya prinsipidir. Vaksinasiyadan bir müddət sonra orqanizmə yeridilmiş preparata qarşı anticisimlər, qoruyucu maddələr əmələ gəlməyə başlayır. Bu, vaksinasiya, yəni aktiv immunizasiyanın prinsipidir və həmişə belə olur.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın yanvarın 16-da keçirilən brifinqində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib.

"Peyvəndi vurdurandan sonra özümüzü qorumağa davam etməliyik. Peyvənd iki dozadan ibarətdir. Birinci dozanı vurduran insanlar virusa yoluxsalar, xəstəliyi yüngül keçirərlər, vaksinin müəyyən qoruyuculuğu olsa da, tam istədiyimiz nəticəni almaya bilərik. Ona görə də çox diqqətli olmalıyıq. Hər kəs vaksinasiyaya ciddi yanaşmalıdır. Vaksinasiyanın aparılması risk qrupunda olan, xəstəliyi ağır keçirən, ağırlaşıb reanimasiya və intensiv terapiya şöbələrinə düşən xəstələrin sayını azaltmaq üçün lazımdır. 70-80 faiz əhali bu xəstəliyi ayaqüstə keçirə bilər. Lakin ağır keçirən, xəstəxanaya, hospitalizasiyaya ehtiyac olan insanlar yetərincə olur, ona görə də biz qapanmalara getməli oluruq. Hər kəs öz məsuliyyətini başa düşməlidir. Bizim hədəflərimiz yaşlılar və xroniki xəstəliyi olanlardır", - deyə Y.Qarayeva qeyd edib.

O həmçinin bildirib: "Hər kəsə müraciət edərək xahiş edirəm ki, nəticələr yaxşı olsa da qorunma tədbirlərinə indiki şəkildə davam edək. Yeni qapanmalara getməmək üçün əlimizdən gələni edək ki, bu rejimdən çıxa bilək. Karantin rejiminə getməmək üçün bu gün yalnız vaksinasiya yetərli deyil. Hər kəs məsuliyyətini dərk edərək sanitar-gigiyenik qaydalara da əməl etməli, vaksinasiya strategiyasında nəzərdə tutulan risk qrupları mütləq olaraq, vaksinasiyaya cəlb olunmalıdır".

* * *

Dünyada koronavirusa yoluxma sayı 94 milyonu keçib. Ölüm sayı 2 milyondan çoxdur. Dünən dünya üzrə yeni yoluxmaların sayı 706 min olub.

O bildirib ki, hazırda ölkəmizdə aktiv xəstə sayı 9793-ə enib. Bu günədək ölkəmizdə "E-təbib" sisteminə düşən, yeni test nəticəsi pozitiv olanların sayı 226 min 549-dur.

* * *

Sərt karantin rejiminin tətbiqindən əvvəl və sonra rəqəmlərdəki azalma nəzərə çarpır. Belə ki, dekabrın 14-dən 20-dək olan həftədə 26 min 214 yeni yoluxma halı olub. Yanvarın 4-dən 10-dək Azərbaycanda 4386 nəfər koronavirusa yoluxub.

"Sağalanların sayına baxsaq, əgər dekabrın ortalarında həftə ərzində 27 min 861 nəfər sağalırdısa, indi bu göstərici 13 min 838-dir. Rəqəm az olsa da, bunu yeni yoluxanlarla müqayisə etməliyik. Yeni yoluxanlarla sağalanların arasında 3-4 dəfə fərq var. Yəni sağalanların sayı yeni yoluxanların sayından 3-4 dəfə çoxdur. Bu da çarpayı fondu və reanimasiyada olan yataqların sayı baxımından önəmlidir. Sərtləşdirilmiş karantin rejimi çarpayı fondunda yerlərin boşalmasına, hətta reanimasiyada olan çarpayıların boşalmasına səbəb olub", - deyə Y.Qarayeva bildirib.

* * *

Dekabrın 14-də yoluxma əmsalı, yəni aparılan testlərin içində pozitiv nəticələrin payı 31 faizə çatmışdı. Bu, çox böyük rəqəmdir. Hazırda isə yoluxma əmsalı 5 faizə qədər enib.

Y.Qarayevanın sözlərinə görə, buna sərtləşdirilmiş karantin rejimi və vətəndaşların qaydalara daha ciddi riayət etməsinin nəticəsində nail olunub.

## TƏBİB: "İnsanlar bir çox ölümcül xəstəliklərdən məhz peyvəndlərin tətbiq edilməsi nəticəsində xilas olublar"

Son günlər sosial şəbəkələrdə yeni növ koronavirus infeksiyası ilə mübarizə məqsədilə tətbiq ediləcək vaksinlərin təhlükəli olması və postvaksional ağırlaşmalara, ölüm hallarına görə TƏBİB tərəfindən kompensasiya veriləcəyi ilə bağlı şayiələr həqiqəti əks etdirmir. TƏBİB tərəfindən belə bir açıqlama verilməyib. Ümumiyyətlə, sözügedən məsələlərin tənzimlənməsi qurumun səlahiyyətlərinə aid deyil. Bu barədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) AZƏRTAC-a daxil olan məlumatda deyilir.

Məlumatda həmçinin bildirilir ki, bu günədək Azərbaycanda hər hansı vaksinlə əlaqəli fəsadın yaranması və ölümə səbəb olması faktı qeydə alınmayıb. İnsanlar bir çox ölümcül xəstəliklərdən məhz peyvəndlərin tətbiq edilməsi nəticəsində xilas olublar.

Yeni növ koronavirus infeksiyasına qarşı peyvəndə gəldikdə isə bir daha bildirmək istərdik ki, 3-cü klinik fazanı keçən bütün vaksinlərin təhlükəsizliyi və effektivliyi yüksək qiymətləndirilir. Əhali arasında yayılan, vaksindən sonra mümkün ola biləcək - başağrısı, əzələ ağrısı, qızdırma və s. kimi əlamətlər əks göstəriş deyil, əksinə gözlənilən nəticədir və tibbi cəhətdən bədənin vaksinə müsbət reaksiya verməsinin göstəricisidir.

Vaksin istehsal edən şirkətlər tərəfindən yalnız vaksinin elementlərinə qarşı həssaslığı olan, vaksin vurulan zaman yüksək bədən hərarəti və ya xroniki xəstəliyinin kəskinləşməsi mərhələsində olan insanlara vurulması tövsiyə edilmir.

"Deyilənləri nəzərə alaraq, vətəndaşlarımızdan yalnız rəsmi məlumatlara inanmağı xahiş edir, ayrı-ayrı şəxslərdən isə cəmiyyətdə çaşqınlıq yaradan açıqlamalardan çəkinməyi tövsiyə edirik. Pandemiya ilə mübarizə dövlətimizin təhlükəsizlik məsələsidir və ümid edirik ki, həmrəyliyimiz nəticəsində bu mübarizədə də qalib olacağıq. Biz birlikdə güclüyük!", - deyə məlumatda bildirilir.

İlin uğurlu yekunları

# Zəfər salnaməsi

## Azərbaycan tarixinin 44 şərəf günü

Azərbaycan xalqı üçün geridə qalan 2020-ci ilin ən böyük hadisəsi ərazi bütövlüyünün bərpası oldu. Sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək işğal siyasətinə son qoydu. Bu savaş Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri əsasında düşmənin kapitulyasiyası ilə başa çatdı.



### Azərbaycanın maraqlarına cavab verməyən bəyanat layihəsi geri götürüldü

Bir neçə il əvvəl ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin prezidentləri birgə bəyannamə ilə çıxış edərək status-kvonun qəbuledilməz olduğunu bildirmişdilər. Bu bəyanat münaqişənin həlli ilə bağlı müəyyən ümidlər yaratmışdı. Lakin bir müddət sonra bu mövqe də dəyişdi, status-kvonun qəbuledilməz olması barədə bir daha danışılmadı və ortaya qoyulan mövqe yalnız status-kvonun qorunmasına xidmət edirdi.

Müharibənin ilk günündən Azərbaycan beynəlxalq hüquqa istinad edərək status-kvonu dəyişdi və sübut etdi ki, işğalçını ən qısa müddətdə torpaqlarından qovmağa qadirdir. 44 gün ərzində Azərbaycan bəzi xarici qüvvələrin təzyiqləri ilə üzləşdi. Ayrı-ayrı dövlətlər Ermənistanı xilas etmək üçün dəridən-qabıqdan çıxdılar. Ermənistanın işğalçı siyasətinə göz yuman və öz laqeydlikləri ilə bu işğala rəvac verən ayrı-ayrı beynəlxalq təşkilatlar və dövlətlər Azərbaycanın uğurlu hərbi əməliyyatlara başlayandan sonra atəşin dayandırılması, problemin danışıqlar masası ətrafında həll olunması üçün canfəşanlıq etdilər. Lakin Prezident İlham Əliyev bütün bu təzyiqlərə mətinliklə, qətiyyətlə sinə gərdi, Azərbaycanın haqq işinin qarşısını heç bir qüvvə ala bilmədi. Humanitar atəşkəs razılaşmalarını da Ermənistan pozdu və buna görə hər dəfə layiqli cəzasını aldı.

Cəbhədə ordumuzun irəlilədiyi bir vaxtda BMT Təhlükəsizlik Şurası (TŞ) səviyyəsində Fransanın təşəbbüsü ilə Azərbaycana növbəti təzyiq göstərilməyə cəhd edildi. Belə ki, TŞ-nin Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar keçirilmiş qapalı iclasdan sonra Fransanın təşəbbüsü ilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələri adından bəyanat layihəsi hazırlandı və razılaşdırılması üçün üzv ölkələr arasında yayıldı. Lakin layihədə TŞ-nin 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edilməmişdi. TŞ-də təmsil olunan Qoşulmama Hərəkatına üzv olan 7 dövlət - İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadin layihəyə TŞ qətnamələrinə istinadın daxil edilməsini təkid etdilər.

Bundan sonra layihənin müəllifi olan həmsədr ölkələr onu geri götürməyə məcbur qaldılar. Beləliklə, İlham Əliyevin Qoşulmama Hərəkatı çərçivəsində həyata keçirdiyi uzaqgörən siyasi fəaliyyətin nəticəsi olaraq erməniпərəst dairələrin Azərbaycana olan təzyiqlərinin beynəlxalq hüquqi qüvvəyə minməsinin qarşısı alındı. *"Bir sözlə, bu siyasi addım iflasa uğradı, heç bir sənəd qəbul edilmədi və hesab edirəm ki, bu, bizim növbəti siyasi qələbəmizdir. Necə ki, döyüş meydanında biz qələbə qazanırıq, siyasi müstəvidə də qələbə qazanırıq. Düşməni necə ki döyüş meydanından qovuruq, düşmənin havadarlarının təxribat xarakterli addımlarına da lazımi cavab veririk. Azərbaycan tək deyil, beynəlxalq birlik tərəfindən ərazi bütövlüyümüz tanınır, biz beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstəririk"* deyə Prezident İlham Əliyev bu barədə bildirdi.

Xatırladaq ki, son 25 ildə ilk dəfə idi ki, Dağlıq Qarabağ məsələsi TŞ-də müzakirə olunurdu. Həmsədrlər tərəfindən hazırlanmış bəyanat layihəsi isə sırf onların üslubunda idi. Atəşkəsə nail olunması, danışıqların aparılması kimi şablon, çeynənmiş fikirlər. Məzmunsuz, ünvansız, işğalçı və işğala məruz qalan ölkə arasında fərqin qoyulmadığı bir mətn. Lakin Azərbaycan onun qəbul olunmasının qarşısını layiqincə aldı.

Bəzən bir sıra müxalifət nümayəndələri "QH-yə qoşulmaq Azərbaycanın nəyinə lazımdır", "Nəyə görə başqa ölkələrə humanitar və maliyyə yardımları edilir" kimi yanlış mühakimələr yürüdürdülər. Amma həmin qətnamənin qəbulunun qarşısının alınmasının nümunəsində hər kəs gördü ki, Prezident İlham Əliyevin xarici siyasət xətti zərgər dəqiqliyi ilə ölçülüb-biçilib və uzunmüddətli hədəflərə hesablanıb. Azərbaycan qısa müddət ərzində qazandığı nüfuz və inama görə QH-nin sədri seçilib. Prezident İlham Əliyev QH ölkələri adından koronavirusa qarşı BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsü ilə çıxış edib ki, dünyanın 130-dan çox ölkəsi bu təşəbbüsü dəstəkləyib. Azərbaycan yalnız COVID-19-la bağlı 30-dan çox ölkəyə maliyyə və humanitar yardımlar göstərib. Buna görə BMT TŞ-də ədalətsiz bəyanatın qəbul edilməməsi və QH-yə üzv ölkələrin dəstəyi Prezident İlham Əliyevin növbəti diplomatik qələbəsi oldu.

### Ermənistana informasiya məkanında da zərbə vuruldu

"Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən, demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik". Bu fikirləri Prezident İlham Əliyev noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində bildirdi. İlham Əliyev bir daha vurğuladı ki, ATƏT-in Minsk qrupu tərəfindən təklif olunan həll üçün əsas prinsiplər faktiki olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasını tələb etsə də, Ermənistan bunu könüllü şəkildə həyata keçirmədi. Ona görə də Azərbaycan Ermənistanı buna məcbur etdi.

(əvvəli qəzetin 8,9,10,12 yanvar nömrələrində)

Ümumiyyətlə isə 44 günlük müharibədə Azərbaycan həm də informasiya cəbhəsində mübarizə apardı və qalib çıxdı. Həmin günlərdə respublikamız düşmənin saxta informasiya cəbhəsini darmadağın etdi. Hətta Ermənistanın havadarları olan dövlətlərdə belə KİV-in saxta təbliğatı nəticəsiz qaldı və ictimaiyyət onların yalan informasiyalarını qəbul etmədi.

Ermənistana qarşı həm informasiya mübarizəsinin, həm düşmənin saxta təbliğatının qarşısının alınması, həm də Azərbaycanın həqiqətlərinin dünyaya çatdırılması prosesinin önündə olan Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev idi. Hərb meydanında olduğu kimi, informasiya məkanında da İlham Əliyev düşmənə sarsıdıcı zərbə vurdu.

Xatırladaq ki, Azərbaycan hələ əks-hücum əməliyyatından əvvəl Ermənistan tərəfindən törədilən ardıcıl təxribatları və erməni yalanlarını sistemli şəkildə, bütün mümkün vasitələrdən istifadə etməklə beynəlxalq arenada ifşa etməyi bacarmışdı. 2020-ci ilin iyul təxribatından əvvəl və sonra Prezident İlham Əliyev bütün beynəlxalq platformalarda Ermənistanın işğalçı siyasətini ifşa etmişdi, düşmən ölkənin Azərbaycana qarşı yeni işğal planları qurduğunu faktlarla sübuta yetirmişdi.

Sentyabrın 27-də Ermənistanın növbəti təxribatı nəticəsində bərpa olunan hərbi əməliyyatlar dövründə isə İlham Əliyev dünyanın nüfuzlu televiziya kanallarına müsahibələrində münaqişənin tarixi, səbəbləri, hazırkı vəziyyəti, habelə Azərbaycanın mövqeyini əsaslandıran hüquqi, siyasi, mənəvi və digər amilləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

İlham Əliyev sentyabrın 29-dan noyabrın 6-na kimi 26 xarici KİV-ə müsahibə verdi. Bunlar Rusiyanın "Rossiya-1, "Pervıy", RBK televiziya kanalları, Ria Novosti, TASS və İnterfaks agentlikləri, Türkiyənin "TRT Haber", CNN-Türk, "Haber Global", "Haber Türk", NTV, "A Haber" televiziyaları, Fransanın "Sky News", "France 24" televiziyaları, "Figaro" qəzeti, Almaniyanın ARD televiziyası, Yaponiyanın "Nikkei" qəzeti, ABŞ-ın "Fox News" televiziyası, İtaliyanın Rai-1 televiziyası və "La Repubblica" qəzeti, İspaniyanın EFE informasiya agentliyi, habelə dünyada yüz milyonlarla izləyiciləri olan "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Euronews", "CNN International", "BBC News" televiziya kanalları idi.

Prezident İlham Əliyev erməni təbliğatına hətta düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında belə tutarlı zərbə vurdu. Ermənistanın erməni lobbisi və xaricdəki havadarlarına əsaslanaraq yenidən özü üçün münbit informasiya mühiti yaratmaq xülyası iflasa uğradı.

Beləliklə, Ali Baş Komandan kimi Prezident İlham Əliyev eyni vaxtda həm döyüş, həm də informasiya cəbhəsində məharətli sərkərdə kimi ölkəsinin maraqlarını inamla və qətiyyətlə müdafiə etdi. Dövlət başçısının istər daxili, istərsə də xarici auditoriya qarşısındakı çıxışları xalqın ürəyindən xəbər verdi. Ən əsası İlham Əliyev məsələlərə operativ müdaxiləsi və reaksiyası, hadisələri nəzarətə götürmək, vəziyyəti idarə etmək bacarığı ilə istənilən ağır şəraitdə, taleyüklü anlarda Azərbaycanın milli maraqlarının müdafiəsinin necə təşkil edilməsi ilə bağlı şəxsi nümunə göstərdi. Bir daha sübut etdi ki, milli maraqlar Prezident İlham Əliyev üçün ən ali dəyərdir.

### İlham ƏLİYEV: " Biz Şuşaya qayıtmışıq!"

Azərbaycan Ordusu irəlilədikcə, rayonlarımızı azad etdikcə bütün diqqətlər Şuşaya yönəlirdi. Hər bir azərbaycanlı səbirsizliklə Şuşanın azad edilməsi barədə xəbəri gözləyirdi. Hələ oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verən Prezident İlham Əliyev jurnalistin "Qarabağın qəlbi, gözü Şuşadır. Azərbaycanlıların gözü-qulağı Şuşadan gələcək xəbərdədir. İstiqaməti Şuşa olaraqmı verdiniz, inşallah?" sulını cavablandırarkən demişdi: "İstiqamət hər tərəfdir. İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Təbii ki, müzakirələr prosesində də hər zaman bu məsələ gündəlikdə idi".

Hərbi əməliyyatların gedişində bütün Azərbaycan xalqı Şuşanın azad olunacağı günü gözləyirdi. Noyabrın 8-də, Dövlət Bayrağı Günü ərəfəsində qədim Azərbaycan şəhəri, milli mədəniyyətimizin, musiqimizin beşiyi, qürur ünvanımız Şuşa şəhərinin azad edilməsi İkinci Qarabağ müharibəsində bütün Azərbaycan dövlətçiliyinin tarixinə qızıl hərflərlə düşən hadisəsi oldu. İlham Əliyev həmin gün və yerimiz olan Şəhidlər xiyabanından xalqa müraciətində Şuşanın azad olunduğunu bəyan edərək dedi: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"

Bu xəbər Azərbaycanın hər yerində böyük coşqu ilə qarşılandı. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilandan sonra qədim Azərbaycan şəhəri, milli qürurumuzun ünvanı Şuşanın da azad edilməsi Azərbaycan xalqının dərin sevincinə səbəb oldu. İnsanlar əllərində Azərbaycan və bu müharibədə respublikamıza mənəvi dəstəyini əsirgəməyən, Türkiyənin və Pakistanın bayraqları ilə tarixi hadisəni qeyd etdilər küçələrə axışdılar.

Şuşanın işğaldan azad edilməsi müasir Azərbaycan tarixinə ən möhtəşəm hadisə kimi həkk olundu. Bu qələbənin fatehi isə Ali Baş Komandan İlham Əliyevdir. İlham Əliyevin gücləndirdiyi ordu, qəhrəman əsgərlər bu qələbəni, bu sevinci xalqımıza yaşatdılar.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev birlik komandiri general-leytenant Hikmət Mirzəyevə zəng edərək Şuşa şəhərini işğalçılardan azad edilməsi münasibətilə onu təbrik etdi. Dövlət başçısı Şuşanın azad edilməsi əməliyyatında rəşadətlə iştirak etmiş hərbi qulluqçulara, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətinə təbriklərini çatdırdı.

Həmin gün Birinci vitse-prezident Mehriban Əliyeva Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik etdi. Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində tarixi qələbə ilə bağlı etdiyi paylaşımda deyilirdi: "Bu anlarda bütün xalqımız təsvirəgəlməz qürur və sevinc hissləri keçirir! Şuşa işğaldan azad edilib! Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!

İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi bizim rəşadətli əsgərlərimizin qəhrəmanlığı və igidliyi, dözümlülüyü və qələbə əzmi sayəsində mümkün olur! Vətən naminə canlarından keçmiş şəhidlərimizə Allah rəhmət eləsin!

Əziz qardaşlar və bacılar!

Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı bir daha təbrik edirəm. Qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan Xalq-Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

(Ardı var)

**Rəşad CƏFƏRLİ, "Azərbaycan"**

# Ömrümüzün ən qürurlu ili

*Əvvəli 1-ci səh.*

### Yeni normal həyata dönüş

Koronavirusun ilkin dalğası başlayanda bu qlobal bəlaya qarşı güclü tədbirlər görmüş və pandemiyanı hazırlıqlı şəkildə qarşılamış Azərbaycan sınaqdan ən az itkilərlə çıxmaqda olan ölkələrdəndir. Dövlətimizin bu sahədə operativ tədbirləri təkcə yeni xəstəxanaların tikilməsi, müasir laboratoriyaların alınması, həkimlərin səfərbər olunması, koronavirus xəstələrinə qulluq edən tibb işçilərinin maaşlarının artırılması ilə məhdudlaşmadı. Ölkə Prezidentinin diqqət və qayğısı, qətiyyəti, ortaya qoyduğu siyasi iradəsi sayəsində hökumətimiz çox böyük sosial paketlə vəziyyətdən ziyan çəkmiş bütün vətəndaşlarının qorunması üçün işlər gördü. Bir neçə milyard manatlıq sosial paket koronavirusdan əziyyət çəkən insanlara, o cümlədən qeyri-formal çalışan və işsiz vətəndaşlara yardımların göstərilməsinə şərait yaratdı. Dövlətimiz eyni zamanda özünün dəstək tədbirləri ilə ölkə iqtisadiyyatını pandemiyanın ağır ziyanlarından qorudu. İş adamlarına, özəl sektora, bizneslərə söykək oldu. Onların fəaliyyətinə müəyyən mənada kömək göstərdi.

Hazırda isə bütün dünyada geniş peyvəndləmə prosesinə hazırlıq gedir. Bəzi ölkələrdə bu proses artıq başlayıb. Peyvəndlərin müsbət nəticələri barədə elmi mərkəzlərin mötəbər rəyləri var. Artıq şükürlər olsun ki, mütəxəssislər qlobal bəlanın çarəsinin tapıldığını ümidlə söyləyə bilirlər. Rəsmi açıqlamalara görə, yaxın həftələrdə Azərbaycana da peyvəndlər gətiriləcək. Bu xəstəlik ölkəmizdə yoxa çıxacaq. Yenidən normal həyatımıza dönəcəyik.

### Sosial dövlət, dayanıqlı iqtisadiyyat

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin nəticələrinə həsr olunmuş iclasında təqdim olunan faktlar respublikanın iqtisadi sahədə də pandemiya böhranından ən az itkilərlə çıxmış ölkələrdən olduğunu göstərdi. Bu dəhşətli virusun təsirlərindən sarsılaraq xeyli geri düşmüş, iqtisadiyyatları kiçilmiş bir çox ölkələrlə müqayisədə Azərbaycan iqtisadiyyatında cəmi 4 faizlik geriləmə var. Vaxtında strateji qərarlar qəbul olunmasaydı, bütün dünya iqtisadiyyatını çökdürmüş belə qlobal bir bəlanın təsiri ilə göstərici daha böyük ola bilərdi. Bu şəraitdə Azərbaycanın qeyri-neft sənayesinin 11 faizdən çox artımı, iqtisadiyyatın şaxələndirilməsi tədbirlərinin düzgün aparılmasından və müsbət nəticələrindən xəbər verir. Bu fakt təsdiq edir ki, Prezident İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi sənayeləşmə siyasəti öz bəhrəsini göstərməkdədir.

Kənd təsərrüfatı sektorunda da 2 faiz artım var. Dövlət rəhbərimizin iclasdakı çıxışında da qeyd etdiyi kimi, bu göstərici daha da yüksələcək. Azad edilmiş torpaqlarda artıq payızlıq əkin işləri aparılmaqdadır. Bunun özü də Azərbaycanın mövcud resurslarından nə qədər səmərəli, təxirəsalınmadan istifadə əzmini, məhsuldar fəaliyyətini, dəyər yaratmaq, insanların rifahına yönələn nəticələr ərsəyə gətirmək potensialını nümayiş etdirir.

30 il ərzində işğal altındakı Azərbaycan ərazilərində yalnız dağıntılar həyata keçirmiş, o bərəkətli torpaqların böyük hissəsini onillər boyu zəhmətsevər insanlara, toxuma, suya, bara-bərəkətə həsrət qoymuş ermənilərin vəhşi əməlləri fonunda bu, xeyli ibrətamiz nümunədir.

2020-ci ildə ölkə iqtisadiyyatının üzləşdiyi çətinliklərə, koronavirusla mübarizəyə dəstək tədbirlərinə, müharibəyə, sosial-iqtisadi paketin icrasına sərf olunan vəsaitlərin yaratdığı təzyiqlərə rəğmən Azərbaycan öz valyuta ehtiyatlarını qorumağa müvəffəq olub. Neft Fondunun vəsaiti az da olsa artım göstərib. Ölkəmizdə orta əməkhaqqı və orta pensiya təqribən 13-14 faiz artırılıb.

Şəhid ailələrimizin, yaralılarımızın, hərbi əməliyyatlardan ziyan çəkmiş vətəndaşlarımızın, əlillərimizin sosial müdafiəsi dövlət rəhbərimizin xüsusi diqqətindədir.

Ötən ilin sonunda imzalanmış fərmanlar əsasında şəhid ailələrinə verilən Prezident təqaüdünün məbləği artırılaraq 300 manatdan 500 manata çatdırılıb. Bu, şəhid ailələrimizlə yanaşı, 20 Yanvar, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş hərbi qulluqçuların ailələrinə də şamil olundu. Prezidentin daha bir fərmanı isə müharibə və 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin rifah halının yaxşılaşdırılmasına xidmət edir. Fərmanla bu kateqoriyadan olanlar, həmçinin müharibə ilə bağlı əlilliyi olan insanlara bərabər tutulanlar (hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər) üçün Prezidentin təqaüdünün məbləği orta hesabla 50 faizdən çox artırıldı. Yeni sosial paketə əsasən, Azərbaycanın Milli Qəhrəmanına Prezidentin aylıq təqaüdünün məbləği 1800 manata çatdırıldı. Vətən Müharibəsi Qəhrəmanı üçün 2000 manat məbləğində Prezidentin aylıq təqaüdü təsis edildi.

Faşizmə qarşı vuruşmuş ahıl vətəndaşlarımız da diqqətdən kənarda qalmadılar. İkinci Dünya müharibəsi iştirakçıları üçün Prezidentin aylıq təqaüdü 100 faiz artırılaraq 300 manata çatdırıldı.

Ötən il məşğulluq proqramları da davamlı şəkildə icra olunub və məşğulluq mərkəzləri tərəfindən 100 min nəfər vətəndaş işlə təmin edilib, 12 min ailə isə özünüməşğulluğa cəlb olunub. 2021-ci il üçün hədəf olaraq bu proqrama cəlb olunan ailələrin sayının artırılmasıdır və 16 min ailənin əhatə edilməsi planlaşdırılır.

### Azərbaycan qlobal inkişaf mərkəzidir

Dekabrın 31-də cəmiyyətimiz daha bir xoş xəbərin sevincini yaşadı. "Cənub qaz dəhlizi" tam istismara verildi. Azərbaycan Prezidenti bu layihənin əhəmiyyətini, yaratdığı geoiqtisadi imkanları xüsusi qeyd edərək dedi: "Onun son seqmenti olan TAP istismara verildi. Azərbaycan qazı tarixdə ilk dəfə olaraq artıq Avropa məkanındadır. Bu, bizim tarixi nailiyyətimizdir. Çünki "Cənub qaz dəhlizi"nin təşəbbüskarı da bizik. Əsas maliyyə yükünü də biz öz üzərimizə götürmüşük. Bir çox ölkələri birləşdirən bu layihə gələcəkdə o ölkələr və digər Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyur. Bu əməkdaşlıq formatı bu gün artıq özünü nəqliyyat sektorunda, ticarət sektorunda göstərir, ondan sonra digər sektorlarda göstərəcək. Biz Avrasiyanın enerji xəritəsini yenidən tərtib etdik. Biz bir-birinə bağlı olan 3500 kilometr uzunluğunda 3 qaz kəmərini inşa etdik. "Şahdəniz-2" layihəsini istismara verdik və artıq Avropa istehlakçıları Azərbaycan qazını alırlar. Bu, həm onlar, həm də bizim üçün faydalıdır. Eyni zamanda, digər layihələr üzrə də uğurlu işlər aparılıb. Əminəm ki, bu layihələrin işlənməsi bizə əlavə dividendlər gətirəcək - həm iqtisadi, həm siyasi".

Əlbəttə, həyata keçirilən iqtisadi layihələr, insanlarımızın rifah halının daha da yaxşılaşmasına xidmət edən addımlar dövlətimizin sosial xarakteri ilə yanaşı, həm də Azərbaycan iqtisadiyyatının dayanıqlılığından, Prezident İlham Əliyevin verdiyi strateji qərarların nə qədər düzgün olduğundan, dövlət rəhbərimizin on illər sonranı proqnozlaşdıra bilmək məharətindən və yürütdüyü siyasəti buna uyğunlaşdırmasından xəbər verir.

Bu cür qlobal layihələr Azərbaycanın regionda lider mövqeyini daha da gücləndirir və ölkəmizin bu bölgələrdə əsas inkişaf mərkəzi olduğunu hər kəs görür. Cənubi Qafqazda müəyyən iqtisadi, siyasi, geopolitik maraqları olan bütün güclər, beynəlxalq təşkilatlar, qurumlar, transmilli şirkətlər, investorlar burada inkişaf reallıqlarını kimin yaratdığının, kimin səmimi şəkildə sülhə, təhlükəsizliyə, davamlı tərəqqiyə xidmət etdiyinin, qonşular və ümumən hər kəs üçün faydalı bir mühitin yaranmasına çalışdığının şahidi olurlar.

Fikrimizcə, müasir dünyamızda siyasi ideologiyaların toqquşması dövrü artıq bitib. Bunu çoxları iddia edir. Dünya artıq insanların beynini zəhərləyən miflərə, ermənilərin və millətçilik mərəzinə mübtəla olmuş qeyri belə etnik toplumların ziyanlı təbliğatına inanmır. Bu gün dünyanın müdrik insanlarının dəyər verdiyi əsas meyar bəşəriyyət üçün müəyyən faydalar yaratmaqdır. Beynəlxalq iqtisadiyyatın daha sıx inteqrasiyasına töhfələr verməkdir. Yeni imkanlar ortaya qoymaqdır. Uzaq yolları yaxın etməkdir. İnsanların rifahı, gələcəyi üçün müəyyən işlər görməkdir. Hər kəsin marağında olan indi məhz budur. Keçmiş haqqında saxta nağıllar, qaranlıq tarixə əsaslanan mənasız söz-söhbətlər daha heç kimin diqqətini cəlb etmir. Azərbaycan dövləti də uzun illərdir ki, məhz bu inkişaf siyasətini aparır. Tərəqqipərvər bəşəriyyətin arzusunda olduğu inkişaf reallıqlarını yaradır. Nüfuzlu beynəlxalq təşkilatların hesabatlarına görə, Azərbaycan bu gün dünyanın ən islahatçı ölkələri sırasındadır. Respublikada inkişaf mühiti getdikcə yaxşılaşdırılır. İnsanların hüquq və azadlıqlarının etibarlı şəkildə qorunmasına təminat verən təməl əsaslar möhkəmlənir. Söz və ifadə azadlığı təmin edilir. Vətəndaş cəmiyyəti formalaşır. Korrupsiyaya qarşı qətiyyətlə mübarizə aparılır. Azərbaycan təhsilə, innovativ inkişafa, gələcəyə ciddi yatırımlar edir. Bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir, ölkə, cəmiyyət özünü yeni bir gələcəyə hazırlayır.

### Dövlətçilik strategiyasının tarixi uğurları

Ölkəmiz dünyada fərqli sivilizasiyaların da təmas nöqtəsinə çevrilib. Tarixən malik olduğu tolerantlıq ənənələrini, sivilizasiyalararası dialoq təcrübəsini, multikultural dəyərlərini dünyaya müasir tərzdə təqdim edir. Azərbaycan hazırda bu sahələrdə qlobal təşəbbüslərin də əsas mərkəzidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə hələ 2008-ci ildən start götürmüş "Bakı prosesi" BMT rəhbərliyinin ən yüksək qiyməti ilə alqışlanır. Azərbaycan dövlətinin ölkə ərazisində fəaliyyət göstərən müxtəlif dini icmalara, ayrı-ayrı etnik qrupların nümayəndələrinə sevgi dolu münasibəti, fərqli sivilizasiyaların abidələrinə, tarixi nişanələrinə diqqət və qayğısı beynəlxalq aləmdə bir nümunə yaradır. BMT, Türk Şurası, Qoşulmama Hərəkatı kimi müxtəlif qlobal çevrələrdə bəşəriyyətin bu günü və gələcəyi ilə bağlı maraqlı təşəbbüslərlə dünyamıza bacardığı faydaları verir. Qısaca desək, beynəlxalq ictimaiyyət artıq kimin-kim olduğuni bilir.

Bütün dünya görür ki, ermənilərin illərdən bəri Azərbaycan kimi xoşniyyətli, sülh və inkişaf məramlı bir ölkəyə, xalqa, cəmiyyətə qarşı uydurduqları yalanlara inanmaq ən azı insafsızlıq və ədalətsizlikdir. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın haqlı mövqeyinə beynəlxalq dəstəyin, bu münaqişəyə maraq göstərən əsas tərəflərin haqsızlığın deyil, haqqın, işğalçının deyil, işğala məruz qalanın yanında olmasının əsas səbəbini də təbii ki, həm də bunda axtarmaq lazımdır. Bu səbəbi, bu reallığı yaradansa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Eyni zamanda uzun illərdən bəri öz fəaliyyəti ilə bu siyasətə dəyərli töhfələr verən, həyata keçirdiyi mədəniyyət diplomatiyası ilə, humanitar fəaliyyətlə böyük tarixi dəyərlər yaradan ölkəmizin Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır.

Azərbaycan Prezidentinin sərəncamı ilə 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edildi. Anadan olmasının 880 illiyini qeyd edəcəyimiz Nizami Gəncəvi irsi bəşəriyyət üçün sonu görünməyən zəngin bir sərvətdir. Prezidentin sərəncamında dünya ədəbiyyatının görkəmli nümayəndəsi, nadir şəxsiyyət, dahi Azərbaycan şairinin yaradıcılığına misilsiz qiymət verilir. İctimai fikir tarixində onun kimi dühaya sahib olmaq isə Azərbaycan xalqının böyük xoşbəxtliyidir.

Eyni zamanda yeni ilin ilk günlərində dövlət başçısı tərəfindən işğaldan azad olunmuş Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Təbii ki, hər iki fakt həyatımızda əhəmiyyətli yer tutaraq yeni bir tarixi başlanğıca çevriləcək.

### İndi dirçəliş zamanıdır

İşğal edilmiş torpaqlarımızın nə yolla olursa-olsun, geri qaytarılacağı Prezident İlham Əliyevin bu illərdəki bir çox müraciətlərinin, çıxışlarının, bəyanatlarının ana xəttini təşkil edirdi. Ölkə rəhbərimiz bu məsələdə də xalqa verdiyi sözü tutdu. İşğaldan azad edilmiş torpaqlarımızı ordumuzun gücü, dəmir yumruğun zərbəsi ilə düşməndən təmizlədi. O yurdlarımızda üçrəngli Dövlət bayrağımız ucaldıldı. Prezident İlham Əliyev Azərbaycanı yeni bir tarixi mərhələyə, yeni bir başlanğıca yetirdi. Bu gün dövlət rəhbərimizin xalq qarşısında verdiyi daha bir söz var: azad edilmiş torpaqlarımızın dirçəlişi, illərdir həsrətlə yolumuzu gözləmiş o yurdlarda cənnətin yaradılması, ölkəmizin öz iqtisadi inkişaf potensialı, gələcəyə yönəlmiş xoş niyyətləri ilə bütün regionun inkişafına töhfələr verməsi.

Artıq sosial şəbəkələrdə Şuşaya gedən yük avtomobillərimizin görüntüləri yayılır. Müvafiq dövlət qurumlarımızın, özəl şirkətlərin o torpaqlarda reallaşdıracaqları geniş infrastruktur layihələri barədə məlumatlar, təsvirlər təqdim edilir. O rayonlarımızın, şəhərlərimizin, kənd və qəsəbələrimizin dirçəlişi üçün yola çıxmış hər yük avtomobili o torpaqlara böyük bir ümid daşıyır, inkişaf aparır. Ordumuzun hərbi Zəfərinin ardınca indi iqtisadi fəaliyyətimiz hərəkətə keçib. Biz o torpaqları birlikdə azad etdiyimiz kimi, birlikdə də dirçəldəcəyik.

Bu yolda da Zəfər bizimdir.

***İradə ƏLİYEVA, "Azərbaycan"***



# İlham Əliyev 39 ildən sonra Şuşaya qalib olaraq gəldi

## Müzəffər Ali Baş Komandan Azərbaycan bayrağını Qarabağın qəlbində ucaltdı

*Əvvəli 1-ci səh.*

1992-ci ilin mayında ovaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü".

Şuşanın, daha sonra Laçının işğal olunması hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün siyasi hoqqalarının nəticəsi idi ki, bu da vətənə xəyanətdən başqa bir şey deyildi. Şuşanın işğalı ilə Ermənistan Dağlıq Qarabağda strateji üstünlüyünü təmin etdi. Laçının işğalı ilə düşmən Ermənistandan Qarabağa gedən yollara nəzarəti ələ keçirdi. Bununla da Azərbaycanın digər rayonlarının işğalı üçün münbit şərait yarandı. AXC-Müsavat qaragüruhu isə bu hadisələrdən sonra Azərbaycanda hakimiyyətə gəldi və yürütdüyü siyasətlə tariximizin növbəti qara səhifələrini yazdı.

### Qələbə yolu

44 günlük müharibənin hər günü Azərbaycan Ordusunun irəliləməsi, torpaqlarımızı işğaldan azad etməsi ilə əlamətdar oldu. Hər gün kəndlərimiz işğaldan azad edildi, hər gün düşmən döyüş meydanında haqlı cəzasına çatdı. Ordumuz irəlilədikcə isə bütün Azərbaycan ictimaiyyətinin, dünyanın hər yerində yaşayan soydaşlarımızın, dostlarımızın diqqəti Şuşaya yönəlmişdi. Hər bir kəs Şuşanın azad ediləcəyini nəinki gözləyirdi, həm də bu xəbəri mütləq eşidəcəyinə inanırdı. Prezident İlham Əliyev oktyabr ayında Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində *"Şuşasız bizim işimiz yarımçıq olar"* demişdi.

Həmin günlərdə Azərbaycan əsgəri Şuşaya doğru irəliləyirdi. Sıx meşələrlə, dağlarla irəliləyən ordumuz bu yolda qəhrəmanlıq nümunələri göstərdi. Düşmənin heç vaxt ağlına belə gəlməzdi ki, Azərbaycan əsgəri dağlardan, dərələrdən, sıldırım qayalardan dırmaşıb keçərək Şuşaya çata bilər. Lakin ordumuz mümkünsüz görünən bu işləri reallığa çevirdi.

Şuşa elə bir strateji məkanda yerləşir ki, təbii relyefi onu müdafiə edir. Lakin on kilometrlərlə dağları aşıb gələn Azərbaycan əsgərinin milli və döyüş ruhu qarşısında keçilməz nəsə ola bilməzdi. Biz öz şəhərimizi, doğma yurdumuzu azad etməyə gəlmişdik və istənilən maneəni dəf etməyə hazır idik. Və bu yolun sonu Şuşanın azad edilməsi oldu, noyabr ayının 8-i isə Zəfər Günü kimi tariximizə düşdü. Ali Baş Komandan İlham Əliyev Şuşaya qəhrəman əsgərlərimizin açdığı yolla getdi və onu Qələbə yolu adlandırdı: "Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir. Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib".

Ermənilər 1992-ci ildə Şuşanı işğal edəndən sonra dırnaqarası əməliyyata "dağlarda toy" adı qoyaraq təbliğ edirdilər. Lakin ötən il noyabrın 8-də Azərbaycan Ordusu işğalçının cavabını verdi. İlham Əliyevin dediyi kimi, indi biz onlara elə toy tutduq ki, bu dərsi əbədi yadda saxlayacaqlar.

İlham Əliyev Şuşaya şəhərin fatehi, İkinci Qarabağ müharibəsinin Müzəffər Ali Baş Komandanı kimi gəldi, Qarabağın qəlbində Azərbaycan bayrağını ucaltdı. Bundan sonra qarşıda duran əsas vəzifə düşmənin erməniləşdirə bilmədiyi, lakin bərbad vəziyyətə saldığı Şuşanın bərpasıdır. Şuşanı xalqımıza qaytaran İlham Əliyevin diqqəti və qayğısı ilə Qarabağın tacı yenidən qurulacaq və milli mədəniyyətimizin ünvanı kimi əvvəlki şöhrətini bərpa edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın 2021-ci il dövlət büdcəsi Ermənistandan 4, Gürcüstandan isə 2,7 dəfə çoxdur

*Əvvəli 1-ci səh.*

Dövlət büdcəsinin gəlirlərinin 54,2 faizi və ya 13 milyard 776 milyon manatı neft sektorunun, 45,8 faizi və ya 11 milyard 651 milyon manatı isə qeyri-neft sektorunun payına düşür.

2021-ci il dövlət büdcəsinin xərcləri 28 milyard 543 milyon manat (ÜDM-də xüsusi çəkisi 37,7 faiz) proqnozlaşdırılır ki, bu da 2020-ci ilə nisbətən 1 milyard 50,8 milyon manat və ya 3,8 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 4 milyard 117,1 milyon manat və ya 16,9 faiz çoxdur.

Cənubi Qafqazın ikinci ən böyük iqtisadiyyatı sayılan Gürcüstanın büdcəsi isə gələn il üçün 18 milyard 385 milyon lari və ya 5 milyard 610 milyon dollar təşkil edəcək. Bu Azərbaycan büdcəsindən təxminən 2,7 dəfə azdır. Cari ilin dövlət büdcəsində Gürcüstanın dövlət borcunun ümumi həcmi 33,7 milyard lari göstərilib. Bunun da 27,7 milyard larisi xarici dövlət borcudur.

Regionda həmişəki kimi, ən aşağı büdcə Ermənistana məxsusdur. 2021-ci il üçün məğlub ölkənin büdcə gəlirləri 1 trilyon 569 milyard dram təşkil edəcək. Bu, 3 milyard 70 milyon dollara bərabərdir. Bu isə o deməkdir ki, işğalçı ölkənin büdcəsi Azərbaycandan 4 dəfədən də çox azdır.

### Azərbaycanın hərbi büdcəsi Ermənistandan 4,5 dəfə, Gürcüstandan isə 9,8 dəfə çoxdur

Cənubi Qafqaz ölkələrinin büdcələrində maraq doğuran məqamlardan biri də hərbi xərclərlə bağlıdır. Ölkəmizdə 2021-ci ilin dövlət büdcəsində ölkənin müdafiə və milli təhlükəsizliyi üçün 4,58 milyard manat (2,7 milyard dollar) ayrılacaq. Bu ötən illin hərbi xərclərindən təxminən 782 milyon manat (460 milyon dollar) və ya 20,5 faiz çoxdur. Ötən ilin hərbi xərcləri dövlət büdcəsinin ümumi xərclərinin 13,8 faizini təşkil edirdi. Bu il isə bu rəqəm 18 faizdən bir qədər artıqdır.

2021-ci ilin dövlət büdcəsində müdafiə xərclərinin 5 istiqamətdə xərclənəcəyi qeyd olunub. Müdafiə qüvvələrinə ayrılan xərclər 15,8 faiz, milli təhlükəsizliyə ayrılan xərclər 6,6 faiz, sərhəd xidmətinə ayrılan xərclər 0,9 faiz, müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar üçün ayrılan xərclər 2,6 faiz, müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər üçün isə əvvəlki illə müqayisədə 31,2 faiz artırılıb.

Qonşu Gürcüstanın hərbi xərcləri cari il üçün cəmi 900 milyon lari və ya 274 milyon 655 min dollar təşkil edəcək. Bu isə Azərbaycanla müqayisədə təxminən 9,8 dəfə azdır.

Ermənistan cari ildə ordusuna 312 milyard dram və ya 597 milyon dollar ayıracaq. Müdafiə sahəsindəki xərclər 2020-ci ilə nisbətən cəmi 1,3 faiz artıb. Ən diqqətçəkən məqam odur ki, müdafiə xərcləri sosial təminat və dövlət idarəetməsi xərclərindən sonra üçüncü yerdədir. Başqa sözlə, dövlət borcunun idarə edilməsi və dövlət aparatının qorunmasını özündə cəmləşdirən dövlət idarəçiliyinə müdafiədən daha çox pul ayrılıb.

Bütün hallarda, aparılan müqayisələr o qənaətə gəlməyə əsas verir ki, Ermənistan ötən ilə nisbətən hərbi xərcləri artırsa da, Azərbaycanla ayaqlaşmaq gücündə deyil. Ən azından ona görə ki, Azərbaycanın müdafiə məqsədləri xərcləri Ermənistanla müqayisədə təxminən 4,5 dəfədən artıq olacaq.

### Ermənistan sosial-iqtisadi problemlər içərisində boğulur

Ümumiyyətlə, müharibənin və pandemiyanın Ermənistan iqtisadiyyatına vurduğu zərər cari il üçün iqtisadi artım perspektivləri vəd etmir. Bununla yanaşı, pandemiyanın hələ də davam etməsi iqtisadi bərpa prosesini əsaslı şəkildə ləngidəcək. Ona görə də bu amillər büdcə proqnozlarının etibarlılığını da şübhə altına alır. Belə vəziyyətdə Ermənistanın daha böyük miqyasda sosial-iqtisadi problemlərlə üzləşməsi qaçılmaz sayılır.

Bundan başqa, gəlirlərin azaldığı bir şəraitdə Ermənistan hökuməti büdcə xərclərini artırmağa məcburdur. İqtisadiyyatın bərpasını həyata keçirmək, əhalinin sosial problemlərini həll etmək və müharibədə həlak olan hərbçilərin ailələrinə maddi dəstək vermək üçün hökumət büdcə xərclərini artırmaq məcburiyyətindədir. Cari il üçün proqnozlaşdırılan büdcə xərclərinin həcmi isə qeyd edilən istiqamətlərdə maliyyələşməni həyata keçirmək və dəymiş böyük zərəri aradan qaldırmaq üçün tələb olunan vəsaitlə müqayisədə çox azdır. Ona görə də Ermənistan hökumətini qarşıda çətin günlər gözləyir. Yalnız müharibə zamanı ölən erməni hərbi qulluqçuların ailələrinə veriləcək birdəfəlik təzminat üçün 47 milyard dramdan çox vəsait tələb olunacaq.

### Ermənilər etiraz edirlər

Onu da bildirək ki, Ermənistanın hərbi büdcəsinin qismən artımı belə, bu ölkənin özündə də narazılıqla qarşılanır. İnsanları səfalət içində yaşayan ölkənin hökumətinin bu qərarı həm də anlaşılmaz hal sayılır. "4rd.am" saytı yazır ki, bütün bunlara görə, Ermənistanda 2021-ci il üçün dövlət büdcəsini qeyri-kafi dəyərləndirmək lazımdır. Qeyd olunur ki, müharibədə məğlubiyyət fonunda hərbi xərcləri artıran hökumətin siyasəti yoxsulluğu aradan qaldırmaq deyil, dərinləşdirməkdir: "Biz artıq üçüncü ildir ki, nə təqaüdləri, nə də sosial və ailə təminatlarını artıra bilmirik. Buna baxmayaraq, ölkədə inflyasiya mövcuddur və davam edir. Biz artıq gələn il ölkədə qiymət artımının 4 faiz olacağını ehtimal edirik. Beləliklə, əgər təqaüd və ailə müavinətini qaldırmırıqsa, deməli, hökumət yoxsulluğun aradan qaldırılmasına yox, onun daha da dərinləşməsinə yönəlmiş siyasət həyata keçirir. Artan hərbi xərclər isə orduya təsir etməyəcək. Çünki orduya ayrılan pullar hələ də oğurlanır".

Ümumiyyətlə isə, büdcə xərclərinin təhlili göstərir ki, torpaqlarını işğaldan azad edən Azərbaycan 2021-ci ildə digər parametrlərlə yanaşı, maliyyə cəhətdən də regionun lideri statusunu daşımaqda davam edəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Bu il aktiv məşğulluq və sosial müdafiə proqramları daha da genişlənəcək

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, 2021-ci il sosial inkişaf, həssas əhali qruplarına, xüsusilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə qayğının artırılması sahəsində növbəti mühüm irəliləyişlər ili olacaq, aktiv məşğulluq və sosial müdafiə proqramları daha da genişlənəcək.



Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin tapşırıqlarının icrası sahəsində görüləcək işlərə, ötən ilin yekunlarına və builki sosial hədəflərə həsr olunmuş kollegiya iclasında vurğulayıb.

Nazir bildirib ki, 2020-ci il tariximizə Zəfər ili kimi qızıl hərflərlə yazıldı. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu möhtəşəm Qələbə əldə etdi, ərazilərimiz işğaldan azad edildi. Postmüharibə dövrü isə şəhid ailələrinin, müharibə iştirakçılarının, müharibədən zərər çəkənlərin sosial dəstəklə təmin olunması işləri ilə xarakterik olan bir dövrdür.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir bildirib ki, bu sahədə işlər qarşıdakı dövrdə daha geniş miqyas alacaq. Prezidentin yanvarın 15-də Şuşada səfərdə olarkən hərbçilərlə görüş zamanı qeyd etdiyi kimi, "Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir. Artıq bu ildən başlayaraq göstəriş verildi. Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və daim o ailələr diqqət mərkəzində olacaqlar. Birinci Qarabağ müharibəsində həlak olmuş 9 min şəhidin ailəsinə dövlət artıq mənzillər, evlər vermişdir. Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq".

Nazir qeyd edib ki, 2020-ci il üzrə mənzillə təminat proqramı - 1500 şəhid ailəsi və müharibə ilə əlaqədar əlilliyi olan şəxsin mənzillə və fərdi evlə təminatı uğurla icra olundu. Hazırda Prezidentin göstərişi ilə mühüm bir proqram - keçmiş köçkünlər üçün tikilmiş mənzillərin şəhid ailələrinə verilməsi üçün həmin mənzillərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilməsi işləri aparılır və artıq bu işlər yekunlaşandan sonra yaxın aylarda şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunmasına başlanılacaq.

S.Babayev 2021-ci ilin işğaldan azad edilmiş ərazilərdə sosial xidmət və reabilitasiya infrastrukturunun qurulmasına başlanması dövrü olacağını və bu istiqamətdə də geniş işlərin aparılacağını deyib. O, eyni zamanda sosial ödənişlərin davamlılığının təmin edilməsinin, özünüməşğulluq proqramına 2020-ci ilə nisbətən 33,3 faiz çox olmaqla 16 min şəxsin cəlb olunmasının təmin ediləcəyini bildirib.

Nazir diqqətə çatdırıb ki, il ərzində yeni reabilitasiya və sosial xidmət mərkəzləri istifadəyə veriləcək. Vətən müharibəsində yaralanmış hərbçilərin reabilitasiyası üçün müasir tələblərə uyğun reabilitasiya sistemi qurulub və onların bu xidmətlərlə, habelə reabilitasiya vasitələri, yüksək texnologiyalı müasir protezlə təminat proqramı da davam etdirilməklə genişləndiriləcək. Nazirlik üzrə e-xidmətlərin sırası ötən il daha da artıb. Bu sahədə işlər davam edəcək və qurum üzrə e-xidmətlərin sayının 61-dən 100-ə çatdırılması təmin olunacaq.

İclasda dövlət başçısının tapşırıqlarının icrası sahəsində qarşıda duran vəzifələr, nazirliyin fəaliyyət sahələri üzrə son bir ildə görülmüş işlər müzakirə olunub.

# Səfərbərlikdən tərxis edilmiş şəxslərin müraciətlərinə baxılması üzrə komissiya 1700-dən artıq müraciətə baxıb





Müdafiə nazirinin müvafiq əmri ilə yaradılmış səfərbərlikdən tərxis edilmiş şəxslərin qəbulu və müraciətlərinə baxılması üzrə komissiyanın fəaliyyəti davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən komissiya tərəfindən beş gün ərzində 1550 müraciətə baxılıb, onların həll olunması üzrə müvafiq tədbirlər görülüb.

Füzuli rayonu ərazisində fəaliyyət göstərən komissiyanın səyyar qrupu tərəfindən isə bugünədək 193 müraciətə baxılıb, onların həll olunması üzrə müvafiq tədbirlər görülüb.

***AZƏRTAC***

# Reza Deqati Fransanın TV5MONDE kanalında Şuşanın tarixindən, erməni vəhşiliklərindən və Azərbaycan multikulturalizmindən bəhs edib

## Məşhur fotoqraf İkinci Qarabağ müharibəsi zamanı Fransa mediasının nümayiş etdirdiyi qərəzlilikdən də danışıb

Məşhur fotoqraf Reza Deqati Fransanın TV5MONDE televiziya kanalının qonağı olub. O, verilişdə Şuşa şəhərinin tarixindən danışıb, onun əsasının Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulduğunu diqqətə çatdırıb.




Reza Deqati vurğulayıb ki, Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir. Şuşa məşhur bəstəkarlar, musiqiçilər, şairlər, yazıçılar yetişdirib. Veriliş zamanı Şuşa şəhərinin tarixi mərkəzini əhatə edən qala divarları nümayiş etdirilib. Şəhərin 30 illik erməni işğalından azad olunduğu bildirilib.

Məşhur fotoqraf İkinci Qarabağ müharibəsi zamanı Fransa mediasının nümayiş etdirdiyi qərəzlilikdən də bəhs edib. O deyib ki, Fransa mediasının bütün jurnalistləri müharibə zamanı Ermənistan tərəfinə getdilər. Təxminən yüzə yaxın fransız jurnalist münaqişəni Ermənistan tərəfindən işıqlandırırdı. "Azərbaycan tərəfində isə mən Fransadan olan yeganə jurnalist idim. Mən adətim üzrə münaqişə zonalarına gedərək insanların çəkdikləri iztirabları işıqlandırmağa çalışıram. Birinci Qarabağ müharibəsi zamanı - 1992-ci ildə də mən Azərbaycan tərəfində idim. Mən Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş kütləvi qırğını, Azərbaycan xalqının əzablarını gördüm və bütün bunları lentə alaraq yaymağa çalışdım", - deyə o qeyd edib.

Reza Deqati verilişdə Ermənistanın döyüş zonalarından uzaqda yerləşən Azərbaycan şəhərlərini, mülki əhalini kasetli bombalarla hədəfə almasından da danışıb. O, Bərdə şəhərinin Ermənistan tərəfindən raket atəşinə məruz qaldığını, mülki əhalinin qətlə yetirildiyini qeyd edib. Fotoqraf erməni bombardmanının qurbanı olmuş Bərdə sakininin dəfn mərasimini əks etdirən şəkli göstərərək müharibə zamanı Ermənistanın mülki əhalini qətlə yetirdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, kasetli bombaların Cenevrə konvensiyaları ilə qadağan olunmasına baxmayaraq, Ermənistan bu silahlardan istifadə etdi və təkcə Bərdədə 20-dən çox mülki şəxs həlak oldu.

Fotojurnalist bildirib ki, o, yalnız müharibədən əziyyət çəkən mülki insanların əzabını dünyaya çatdırmaq istəyir.

Reza Deqati veriliş zamanı Azərbaycandakı multikulturalizmdən də bəhs edib, bununla bağlı çəkdiyi fotoları nümayiş etdirib. O, Azərbaycanda müxtəlif dini icmaların birgə mehriban şəraitdə yaşadıqlarını vurğulayıb. Fotojurnalist Azərbaycanın dini tolerantlığı ilə həmişə diqqəti cəlb etdiyini bildirib. O vurğulayıb ki, Azərbaycan dini tolerantlıq baxımından dünya dövlətlərinə nümunədir və hətta Avropa ölkələrində də bu cür tolerantlıq yoxdur.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 2020-ci il üzrə ölkədə elektrik enerjisi ilə bağlı operativ göstəricilər açıqlanıb

2020-ci ildə ölkə üzrə elektrik enerjisinə dair operativ məlumatlara əsasən, dekabr ayında respublika üzrə elektrik enerjisinin istehsalı 2389,3 milyon, ixracı 157,56 milyon, idxalı 10,7 milyon kilovat/saat (kVt/st) olub.

Ötən ilin yanvar-dekabr aylarında isə Azərbaycanda elektrik enerjisinin istehsalı 25811,2 milyon kVt/st təşkil edib. Hesabat dövründə elektrik enerjisinin istehsalı İES-lərdə 24398,2 milyon, SES-lərdə 1069,5 miyon, digər mənbələr (KES, GES və BMTYZ) üzrə isə 343,55 milyon kVt/st olub. Bu dövrdə külək elektrik stansiyalarında 96,1 milyon, Günəş elektrik stansiyalarında 46,9 milyon, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda 200,6 milyon kVt/st elektrik enerjisi istehsal edilib.

2020-ci ildə elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 23033,8 milyon, (İES-lərdə 22142,5 milyon, SES-lərdə 891,3 milyon kVt/st), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 429,7 milyon (İES-lərdə 230,8 milyon, kVt/st, SES-lərdə 157,8 milyon, Günəş ES-də 41,1 milyon kVt/st), müstəqil elektrik stansiyaları üzrə 2272,7 milyon, "Azərişıq" ASC üzrə külək elektrik stansiyalarında isə 75,1 milyon kVt/st təşkil edib.

Bu dövrdə elektrik enerjisinin ixracı 1147,8 milyon, idxalı isə 136,3 milyon kVt/st olub.

## Sosial-psixoloji reabilitasiyaya cəlb edilən qazilərlə görüş olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin (DTSERA) rəhbərliyi agentliyin Reabilitasiya Mərkəzində sosial-psixoloji reabilitasiya xidmətləri göstərilən Vətən müharibəsi qaziləri ilə görüşüb.

Görüşdə dövlət başçısının tapşırığı ilə nazirlik tərəfindən postmüharibə dövründə şəhidlərin ailələri, qazilərimizlə bağlı sosial dəstək tədbirləri həyata keçirildiyi bildirilib.

Qeyd edilib ki, bu dəstək tədbirləri artıq 8500 şəxsi əhatə edib və onlardan 3200-ə yaxın şəxs sosial-psixoloji dəstəklə təmin olunub. O cümlədən DTSERA-nın reabilitasiya müəssisələrində postmüharibə dövründə 260 qaziyə, şəhidlərin, yaralı hərbçilərin 20 uşağına sosial-psixoloji reabilitasiya xidmətləri göstərilib. Bakı Sağlamlıq Mərkəzində və Sərhəd Qoşunları Hospitalında müalicə alan hərbçilərdən 28 hərbçini də agentlik sosial-psixoloji reabilitasiyaya cəlb edib. Eləcə də 5 qazi yüksək texnologiyalı müasir protezlə, 7 qazi əlil arabası, əlavə olaraq 130-a yaxın qazi 530-dan çox reabilitasiya vasitəsi ilə təmin olunub.

Nazirlər Kabinetinin 13 yanvar 2021-ci il tarixli qərarı ilə əmək və əhalinin sosial müdafiəsi nazirinin sədrliyi ilə yaradılan komissiya tərəfindən isə hərbçilərin tibbi-sosial ekspertizasının əyani müayinə keçirməklə operativ, vaxtında, keyfiyyətlə və mərkəzləşmiş şəkildə aparılması üçün müvafiq işlər görülür.

Görüş zamanı mərkəzdə sosial-psixoloji reabilitasiya kursu başa çatmaqda olan qazimiz - döyüşlərdə qəlpə yarası almış Cəfərov Samir İlham oğlunun doğum günü olduğu bildirilib və onun ad günü qeyd edilib. Agentlik sədri, mərkəzin kollektivi, qazi yoldaşları ona xoş arzularını ifadə ediblər.

Görüşdən sonra agentliyin rəhbərliyi göstərilən sosial-psixoloji reabilitasiya xidmətlərini nəzərdən keçirib.

# Azərbaycanın zəfəri regionun iqtisadi inkişafı üçün yeni perspektivlər yaradır

### Moskva bəyanatı həmin perspektivlərin reallaşmasına imkan verir

Əvvəli 1-ci səh.

Bu, təsadüfi deyil. Çünki indi gündəmdə iqtisadi müstəvidə müzakirə edilən məsələlər daha çox aktuallıq kəsb edir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) rəhbəri, iqtisad elmləri doktoru Vüsal Qasımlı hesab edir ki, Azərbaycan regionun iqtisadi arxitekturasını müəyyənləşdirən yeni reallıq yarada bilmişdir: "Aparılan iqtisadi-riyazi hesablamalar kommunikasiyaların açılmasının və iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsinin region və ayrı-ayrı ölkələr üçün faydalı olacağını göstərir".

V.Qasımlı deyir ki, regionda kommunikasiyaların açılması Azərbaycanın ixracını 1,2 milyard manat, qeyri-neft ÜDM-i 2, emal sənayesini 3 və mədən sənayesini 2,7 faiz artıra bilər. Qravitasiya modeli əsasında aparılan hesablamalara görə, kommunikasiyaların açılması nəticəsində eyni zamanda Ermənistanın ticarət dövriyyəsində Türkiyənin payı 3 faizdən 13, Azərbaycanın payı isə ilk dövrdə minimumdan 1 faizə qədər arta bilər: "Bizim ümumi tarazlıq modeli əsasında hesablamalarımız göstərir ki, Qarabağın Azərbaycan iqtisadiyyatına reinteqrasiyası ortamüddətli dönəmdə kənd təsərrüfatında 10,4, turizmdə 5,5, mədənçıxarma sənayesində 5,3, nəqliyyat xidmətlərində 4,9, emal sənayesində 4,3 və digər xidmətlərdə 1,4, bütövlükdə isə qeyri-neft ÜDM-in formalaşmasında 5,1 faiz müsbət təsirə malik olacaq".

İİTKM-nin apardığı hesablamalar belə qənaətə gəlməyə imkan verir ki, Ermənistan Gümrü-Naxçıvan-Mehri-Bakı və İcevan-Qazax-Bakı istiqamətlərində Azərbaycanın nəqliyyat imkanlarından istifadə etməklə öz ticarət dövriyyəsinin 25-30 faizini təşkil edən Rusiya ilə əlaqə yarada bilər. Əgər Qarsdan Gümrüyə ermənilər dəmiryolu çəkmək istəsələr, xarici mənbələrin hesablamalarına görə, bütövlükdə Qars-Gümrü-Naxçıvan-Mehri-Bakı marşrutu üçün təxmini 434 milyon ABŞ dolları xərcləmək lazımdır. Bu dəmiryolu layihəsi illik 10 milyon ton yük daşımaqla fəaliyyətinin 13-cü ilində mənfəət gətirə bilər. Bununla yanaşı, Qarsdan Naxçıvana və Naxçıvandan Mehri dəhlizi üzərindən Zəngilana planlaşdırılan dəmiryolu xətti həmin layihəni tamamlayır. Yeri gəlmişkən, əgər Ermənistan 30 il ərzində müharibəyə xərclədiyi pulları belə zəruri layihələrə sərf etsəydi, fərqli iqtisadi imkanların sahibi ola bilərdi.




Bundan sonra Ermənistanın Azərbaycan və Türkiyənin dəmiryolu xətlərinin inteqrasiyasına qoşulmaq imkanları rəsmi Yerevanın yürüdə biləcəyi rasional siyasətdən asılıdır. İşğalçı dövlət anlamalıdır ki, onun üçün Türkiyə üzərindən Aralıq və Qara dəniz limanlarından başqa Azərbaycan üzərindən Culfa vasitəsilə İranla əlaqələr qurmaq şansları da mövcuddur. Onu da deyək ki, çətin coğrafi şəraitdə Ermənistan-İran dəmiryolu layihəsinin tikintisi üçün 2-3 milyard dollar vəsait yatırmağa heç bir investor razı deyil. Amma Cənubi Qafqazda kommunikasiyaların açılması İranın Bəndər-Abbas yük limanı vasitəsilə İran və Oman körfəzlərinə, eləcə də Hind okeanına çıxış, İstanbul-İslamabad qatar xəttinə qoşulma imkanı yaradır.

İqtisadçı V.Qasımlı hesab edir ki, Qars-Naxçıvan-Mehri-Zəngilan-Bakı dəmiryolu xətti Naxçıvanın blokadadan çıxarılması, nəqliyyat xərclərinin və ətraf mühitə təsirlərin azaldılması, xarici ticarət imkanlarının artması, turizmin və sərnişin dövriyyəsinin yüksəlməsi, həmçinin regiona sərmayə cəlbi baxımından əhəmiyyətlidir: "Faktiki olaraq Azərbaycan Aralıq dənizi hövzəsi ilə Xəzər hövzəsinin böyük İpək yolu və "Şimal-Cənub dəhlizi" üzrə daha bir inteqrasiyasına rəvac verir. Orta Asiya və Avropa, Türkiyə və Rusiya, İran və Avropa, Türkiyə və Orta Asiya arasında yeni nəqliyyat imkanları yaranır".

V.Qasımlı həmçinin bildirib ki, vaxtilə Avropa İttifaqı da kömür və polad haqqında sazişin üzərində qurulub: "Regionumuzda Azərbaycanın yaratdığı yeni reallığa uyğun olaraq kommunikasiyaların açılması sülhün, təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın əsasını qoyur ki, bu da sərmayələrin cəlbi və davamlı inkişaf deməkdir. İndi dizayn verilən kommunikasiya layihələri regionun gələcək nəqliyyat və enerji xəritəsini, bütövlükdə iqtisadi, siyasi və strateji arxitekturasını şərtləndirəcək".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Tütünçülüyün inkişafı ilə bağlı müşavirə keçirilib

Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycan Respublikasında tütünçülüyün inkişafı ilə bağlı 2020-ci ilin yekunları və 2021-ci ildə qarşıda duran vəzifələr" mövzusunda onlayn müşavirə keçirilib.

Müşavirədə kənd təsərrüfatı naziri İnam Kərimov, Azərbaycan Sənaye Korporasiyasının baş direktoru Kamran Nəbizadə, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavini Zakir Quliyev, nazirliyin aparatı və tabeli qurumlarının əməkdaşları və bu sahədə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər.

Tədbirdə qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aqrar sahənin inkişafı prioritet istiqamətlərdən biri kimi elan edilib. Bildirilib ki, aqrar sahənin, o cümlədən tütünçülüyün inkişafı üçün dövlət tərəfindən sistemli dəstək tədbirləri həyata keçirilir.

Müşavirədə "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlər və əldə edilən nəticələr müzakirə olunub. Bildirilib ki, ölkədə tütünçülüyün inkişafının dövlət tərəfindən dəstəklənməsi nəticəsində tütünün əkin sahələri və istehsalı artıb.

Tədbirdə fermerlər, ilkin emal müəssisələri və istehsalçı şirkətlər arasında dəyər zəncirinin düzgün qurulmasının vacib olduğu diqqətə çatdırılıb. Keyfiyyətli tütün istehsalı üçün aqrotexniki tədbirlərin vaxtında və düzgün yerinə yetirilməsi, torpaq sahələrinin aqrokimyəvi analizinin aparılması, mineral gübrələrdən düzgün istifadə olunması, tütün yarpaqlarının vaxtından əvvəl dərilməsinə yol verilməməsi, zərərvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında görülməsinin vacib olduğu vurğulanıb.



# Su təchizatının səmərəli təşkili daim gündəmdədir

### Torpaqlarımızın işğaldan azad olunması ölkənin su ehtiyatlarının bir daha qiymətləndirilməsini zəruri etmişdir

Əvvəli 1-ci səh.

Bu ərazilərdə müxtəlif dövrlərdə su anbarları tikilib. Məsələn, Xudafərin su anbarının tutumu 1,6 milyard kubmetrdir. Tikilməkdə olan Qız qalası su anbarı 62 milyon kubmetr su tutmaq həcmindədir. Sərsəng su anbarı 565 milyon, Suqovuşan su anbarı 6 milyon, Xaçınçay su anbarı 23 milyon, Köndələnçay kiçik su anbarları 14,8 milyon kubmetrlikdir. Təqribi hesablamalara görə, Azərbaycan 2 milyard kubmetrdən artıq su ehtiyatından daha səmərəli istifadə etmək imkanı qazanıb. Bu isə suya tələbatın dolğun ödənilməsi üçün yeni imkanlar deməkdir.

Keçən ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızda çox böyük su mənbələri olduğunu və mənfur düşmənin bizi uzun müddət həmin mənbələrdən məhrum etdiyini vurğulamışdır. Bu ərazilərdəki ən böyük çayımız Tərtərin mənbəyi Kəlbəcər rayonunda olduğundan onun sularından istifadə edə bilmirdik. Sərsəng, Suqovuşan su anbarları ermənilərin əlində idi, onlar suyu kəsdiyindən bu bölgələrdə yüzlərlə subartezian quyusu qazmaq məcburiyyətində qalmışdıq. Prezident demişdir: "Bunun da böyük maliyyə yükü var - həm onların qazılmasında, həm də ki, istismarında, çünki enerji sərf olunur. Biz Suqovuşan qəsəbəsini azad edəndən sonra artıq suyun axını təmin edilib, ancaq indi kanallar problemi üzə çıxıb. Çünki bu kanallar uzun illər ərzində istifadəsiz qalıb. Bizim digər çaylarımız oradan mənbə alır və o ərazidən keçir. Həkəri çayı, Bazarçay, Oxçuçay, Xaçınçay. Onların bir çoxu Araz çayına axır və çaylar boyu orada su anbarlarının tikilməsi nəzərə alınmalıdır".

Prezident bu ilin Dövlət İnvestisiya Proqramına və azad edilmiş torpaqlarda görüləcək işlərlə bağlı proqrama bu məsələnin salınmasının vacibliyini bildirmişdir. Dövlət başçısı artıq kanalların layihələndirilməsinə və tikintisinə start verilməli olduğunu demişdir. Onsuz da münbit olan bu torpaqların suvarma suyu alandan sonra məhsuldarlığı daha da artacaq. Bu da o deməkdir ki, ərzaq təhlükəsizliyimizi böyük dərəcədə özümüz həll edəcəyik.

Qeyd edək ki, son illərdə, ümumiyyətlə, ölkənin əsas su anbarlarında su ehtiyatlarının həcmi azalmışdır. Keçən il aprelin 30-da onlardakı suyun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,4 milyard kubmetr, Mingəçevir su anbarında 1 milyard kubmetr az olmuşdur. Su ehtiyatlarının planlı və optimal istifadəsi istiqamətində görülən tədbirlər sayəsində ilin sonuna əsas su anbarlarında suyun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 320 milyon kubmetr, o cümlədən Mingəçevirdə 240 milyon kubmetr çoxalmışdır. Məhdud su ehtiyatlarının ədalətli və proporsional bölgüsü prinsipi əsasında yazlıq və payızlıq əkinlərin böyük bir sahəsi üzrə bütün maraqlı tərəflərin imzaladığı suvarma qrafikləri tərtib olunmuşdur. Beləliklə, ötən ilin kəskin su çatışmazlığı şəraitində 1,4 milyon hektar sahədə kənd təsərrüfatı bitkiləri orta hesabla 3,2 dəfə suvarma suyu ilə təmin edilmişdir. Nəticədə pambıq, şəkər çuğunduru, qarğıdalı, tütün, kartof, tərəvəz, üzüm və digər bitkilərin istehsalı əvvəlki ilə nisbətən müəyyən qədər artmışdır. Bununla belə, son illər davam edən quraqlıqlar və su anbarlarında kifayət qədər suyun toplanmaması öz mənfi təsirini göstərmişdir. Suya tələbatın tam və ya vaxtında ödənilmədiyinə görə suya xüsusilə tələbkar bitkilər üzrə əkin sahələri azalmışdır.

Ölkənin su ehtiyatları sahəsində gərgin vəziyyət indi də davam edir. Əsas su anbarlarında 20,5 milyard kubmetr tutuma qarşı cəmi 10,5 milyard kubmetr su mövcuddur, onun da 8,6 milyard kubmetri ölü həcmdir. Bu baxımdan qısamüddətli hədəf əsas su anbarlarında suyun həcmini əvvəlki üç illə müqayisədə daha yüksək səviyyəyə çatdırmaqdır. İlk növbədə qarşıdakı suvarma mövsümünə nisbətən daha yaxşı vəziyyətdə daxil olmaq vacibdir. Sonrakı məqsəd isə suyun həcmini minimum 2016-cı ilin səviyyəsinə uyğunlaşdırmaqdır.

Su ehtiyatlarından istifadədə səmərəliliyin artırılması, tələbata uyğun dayanıqlı su təchizatının təmin olunması, su təsərrüfatının idarə edilməsinin təkmilləşdirilməsi məqsədi ilə milli strategiya və onun həyata keçirilməsi üzrə fəaliyyət planının layihələri hazırlanıb. Suvarma sahəsində itkilərin azaldılmasında prioritet sayılan suvarma kanallarının yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırmaların və layihə sənədlərinin hazırlanması istiqamətində işlər, eləcə də digər tədbirlər davam etdirilir.

Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə həyata keçirilən çoxsaylı və çoxşaxəli tədbirlərlə yanaşı, işğaldan azad edilmiş ərazilərimizdəki su ehtiyatlarından səmərəli istifadə də imkan verəcək. Prezident həmin bölgələrdə su mənbələrinin kifayət qədər çox olduğunu bir daha vurğulayaraq demişdir ki, kənd təsərrüfatının məhsuldarlığının artırılması üçün suvarma işləri sürətlə getməlidir. Orada ən müasir suvarma sistemlərinin təşkil edilməsi tapşırılmışdır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ötən il Azərbaycanla Belarusun ticarət dövriyyəsi artıb

2020-ci ildə Azərbaycan və Belarus arasında ticarət dövriyyəsi 313 milyon dolları ötüb ki, bu da 2019-cu illə müqayisədə 86 milyon dollar çoxdur.

Bu barədə AZƏRTAC-a Belarus Dövlət Statistika Komitəsindən məlumat verilib. İl ərzində Belarusdan Azərbaycana ixracın dəyəri 148,2 milyon dollar, ölkəmizdən Belarusa isə 165 milyon dollar təşkil edib.

Qeyd edək ki, 2019-cu ildə Azərbaycanla Belarus arasında idxal-ixrac əməliyyatlarının dəyəri 227 milyon dolları keçib.

## Polad qollar Qarabağa uzanır

44 günlük Vətən müharibəsi zəfərlə başa çatmış, Ermənistan ordusu darmadağın edilmiş, düşmən üzərində parlaq qələbə qazanılmış, Qarabağın 30 illik işğalına son qoyulmuşdur.

Zəfərdən sonra yeni tarixi mərhələyə qədəm qoymuşuq. Bu mərhələdə faşist xislətli düşmənlərimizin odlara qalayıb viran qoyduğu, daş üstə daş qoymayan Qarabağımızın başdan-başa yenidən qurulması nəzərdə tutulur. Genişmiqyaslı tikinti-quruculuq işlərinin konkret parametrləri, həyata keçiriləcək infrastruktur layihələri artıq məlumdur. Hansı ərazilərdə hansı işlərin görüləcəyi də müəyyən edilib.



Yeni layihələrdən biri də Bərdə-Ağdam dəmir yolu xəttinin yenidən inşa olunmasıdır. Məlumdur ki, hələ sovet dönəmində Bakı-Xankəndi dəmir yolu fəaliyyət göstərirdi. Bütün Qarabağı xaraba qoyan ermənilər bu dəmir yolu xəttini də dağıtdılar, polad relsləri söküb satdılar.

Böyük ümidlər, qurub-yaratmaq həvəsi ilə qədəm qoyduğumuz yeni mərhələdə Bərdə-Ağdam dəmir yolu xəttinin bərpasının xüsusi əhəmiyyəti var. Böyük inşaat meydanına çevriləcək Qarabağa iri həcmdə inşaat materiallarının daşınmasında dəmir yolunun rolu əvəzedilməz olacaq. Artıq inşaat işlərinə başlanılmışdır. İşlər yekunlaşdıqdan sonra vətənimizin bir parçası olan Qarabağa uzanan polad qollar yaralı yurdumuzun yenidən dirçəlib abad bir diyara çevrilməsinə güclü stimul verəcək, quruculuq prosesini sürətləndirəcək.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Yeni məktəb binası görkəmli tarixçi alimin adına layiq olacaq

Salyan rayonunun Qızılağac kəndindəki tam orta məktəb tarix elmləri doktoru, akademik Əlövsət Quliyevin adını daşıyır. Tarixçi alim bir vaxtlar özü bu məktəbdə oxumuş, böyük elmə doğru gedən çətin yolun başlanğıcını buradan başlamışdır.

Zəhməti, zəkası ilə tarixin dərin qatlarına işıq salaraq, onilliklər, yüzilliklər boyu açılmayan, gizli qalan həqiqətləri üzə çıxarmış, "Azərbaycan tarixi" çoxcildliyi kitabının həmmüəlliflərindən biri və əsas müəllifi olmuşdur.

Həyatdan vaxtsız köçən alim respublika elmi ictimaiyyəti arasında böyük nüfuz sahibi idi. Salyanlılar, o cümlədən böyüyüb boya-başa çatdığı Qızılağac kəndinin sakinləri həmyerliləri, böyük istedad sahibi olan tarixçi alimin xatirəsini əziz tuturlar. Salyan şəhərindəki mədəniyyət evi və küçə, habelə qeyd etdiyimiz kimi, təhsil aldığı Qızılağac kənd məktəbi indi onun adını daşıyır.

İndi həmin məktəb müasir standartlar səviyyəsində yenidən inşa edilir. 1000 şagirdlik təhsil ocağının tikintisinə keçən ilin mart ayında start verilmişdir. Obyektin sifarişçisi Heydər Əliyev Fondu, icraçısı "Ulu Göyçə" MMC-dir. Üçmərtəbəli bina 3 tədris korpusundan, idman və yemək zallarından ibarət



olacaq. Burada kitabxana, həkim otağı fəaliyyət göstərəcək. Binanın isidilməsi üçün hazırda qazanxana tikilir, sinif otaqlarına və digər yerlərə qızdırıcı xətlər çəkilir. Binanın həyətindəki 100 və 300 kubmetrlik anbarlar isə təhsil ocağını içməli, eyni zamanda yanğından mühafizə üçün su ilə təmin edəcək. Alternativ enerji mənbəyi kimi bina üçün xüsusi generator da qoyulacaq.

İnşaatçılar qış dövründə havaların mülayim keçməsindən səmərəli istifadə etməyə çalışırlar. Hazırda fasadın, habelə binanın içində sinif otaqlarının suvağı vurulur, idman zalının qalan hissəsinin, qazanxananın daşı hörülür. Bununla yanaşı, məktəb ərazisinə hasar çəkilir, açıq havadakı idman meydançasının ərazisi sahmana salınır.

Hazırda tikintidə 60 nəfər çalışır. Onların çoxu Qızılağac kəndinin sakinləridir. Lakin gələn aydan işlərin sürəti daha da artırılacaq və işçilərin sayı 120 nəfərə çatacaq. Obyektdə keyfiyyət məsələsi də diqqət mərkəzində saxlanılır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan bu təhsil ocağı tarixçi alim Əlövsət Quliyevin xatirəsinə ən böyük töhfə olacaq. Akademik həmişə kəndinin inkişaf etməsini, buradan savadlı, bilikli, adlı-sanlı ziyalıların çıxmasını arzulamışdı. Yeni məktəb bunun üçün şərait yaradacaq.

İnşaatçılar təhsil ocağını bu ilin may ayında istifadəyə verməyi nəzərdə tuturlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

## Doğmalarını gözüyaşlı qoysa da, Azərbaycanı Qarabağsız qoymadı



Qara xəbər yüyrək olur, deyirlər. Oktyabr ayının sonu yaxınlaşırdı, 25-i idi. Axşamdan bütün Azərbaycanı qara xəbər bürüdü: “Kobra” ləqəbli 50 yaşlı polkovnik-leytenant Xeyrulla Mais oqlu İbrahimov şəhid olub. Allah, Allah, bayram sevinci bitməmiş dərd-kədər bürüdü Azərbaycanı. Arzular, muradlar, niyyətlər, daha nələr-nələr düşmən gülləsinə tuş gəlib al-qana qərq oldu oktyabrın 25-i...

Xeyrullanın bir qardaşı, bir bacısı var. Ailənin böyüyü - ilki idi. Bildiyimə görə, Xeyrulla ürəkli bir övlad olub. Onu da bilirəm ki, bu dünyada hər kəsin öz yeri var. Kimsə kiminsə yerini dolduracaq qüdrətində deyil. Çünki Ulu Yaradan hər kəsi bir “mən” olaraq yaradıb. 50 yaşlı Xeyrulla da elə özüdür. Onun igidliyi, qəhrəmanlığı, Vətən uğrunda verdiyi can özü kimi saf, müqəddəs, arzularla dolu, duyğulu, həyat eşqli idi. Fəqət həmin gün bu arzular, bu duyğular güllə səslərinə qarışdı, mərmilərə tuş gəldi.

Hələ 1992-ci ildə xalqının düşmən, bədnam və mənfur erməni işğalı ilə apardığı döyüşlərdə iştirak etmək üçün “Kobra” öz Vətəninə qayıtmış, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının müdafiəsi uğrunda gedən döyüşlərə qoşulmuşdu. Döyüşlərdə iştirak etdiyi rayonların heç birində nə özü, nə də hərbi hissələri bir addım geri çəkilmişdi. Lakin 1994-cü il martın 22-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində yaralanan Xeyrulla döyüşlərdən aralanmağa məcbur olmuşdu.

Onun üçün arzularından yüksəkdə bir sevgi vardı - Vətən sevgisi. Xeyrulla Vətən sevgisinə görə bütün arzularından keçmişdi. Atasının yana-yana, ağrı ilə dilə gətirdiyi “Bala, bu uşaqları yerbəyer et, sonra gedərsən savaşa”, - arzusuna belə cavab vermişdi: “Ata, sən də, bacı-qardaş da, uşaqlar da Allaha əmanət olun. Gedib Vətəni düşmənin caynağından xilas edək, qayıdıb hər şeyi yoluna qoyacağam.” Xeyrulla sanki o məqamda ilahi inadkarlıq göstərmişdi. Çünki o, atasına ömrü boyu qayıtmamışdı.

Bax, elə buna görə Xeyrulla bənzərsizdir, əvəzolunmazdır. Göz yaşlarımız sifətimizi döyəcləyir, ürəyimiz qəfəsə salınmış bülbül kimi çırpınır. Dərd-dərd üstündən, ağrı-ağrı üstündən...

Atası Mais kişi içini yandıran bu itkinin təsirindən çıxmayıb: “Övladları Türkiyədə təhsil alır. Dedim ki, ay bala, onları yerbəyer elə, pandemiya dövründə belə qalmasınlar. Dedi ki, ata, qala bilmərəm. Çox vətənpərvər oğul idi, inadkarlığı və prinsipiallığı ilə seçilirdi”.

Dəqiq koordinat bilgilərinə sahib olan X.İbrahimovun hərbi xidmətdə yüksək fəallıq göstərdiyinə görə bir həftə ərzində müdafiə nazirinin əmri ilə vəzifəsi bərpa olunaraq Bakı korpusu üzrə artilleriya rəisi təyin edilmişdi. Hərbini çox dərindən bildiyi, mühüm strateji yüksəklik və məntəqələri işğaldan azad etdiyi və bu səbəbdən düşməni vahiməyə saldığı üçün ermənilər “Kobra”nın başına böyük məbləğdə pul mükafatı ayırmışdılar.

Anasının dediklərindən: “Dedim ki, ay oğul, uşaqların anası 4 aydır rəhmətə gedib, onları mənə necə ümid olub gedirsən? Dedi ki, sən möhkəm anasan. Bilirəm ki, onları darda qoymazsan. Oğlum Vətən uğrunda şəhid olub. Mən oğlumu qoruyum, başqası da eləcə. Bəs, Vətəni kim qorumalıdır? Mən fəxr edirəm oğlumla. Bu cür övlad yetişdirdiyim üçün içim dərdlə dolu olsa da, əldə etdiyimiz möhtəşəm Zəfər oğlumun qanının yerdə qalmadığını sübut etdi”.

Oğlu Anar: “O, yeganə hərbçi idi ki, bir mərmi topu ilə iki texnika partlada bilirdi. Papağına düşən kölgəylə belə, düşmənin texnikasının yerini təyin edə bilirdi. Savaşa getdiyi gün - sentyabrın 28-i onun ən yaxşı günü idi, sevinə-sevinə yollandı döyüşlərə”.

Orada eşitdiklərimiz, gözü nəmli, ürəyi dərdli atasının bizə təqdim etdiyi bir sənəd diqqətimizi xüsusi cəlb etdi. Burada Xeyrulla haqqında hər şey var idi:

*“Xeyrulla 19 aprel 1971-ci ildə anadan olub. 1978-1985-ci illərdə Bakıdakı 116 nömrəli orta məktəbdə təhsil alıb. O, 1988-1992-ci illərdə isə Xmelnitski Ali Artilleriya Komandanlıq Məktəbində oxuyaraq artilleriya ixtisasını qazanıb. Təhsildən sonra leytenant rütbəsi ilə müdafiə nazirinin əmrinə əsasən hərbi xidmətini 930 nömrəli hərbi hissədə davam etdirib. 28 sentyabr 1992-ci ildən başlayaraq həmin hissədə haubitsalı artilleriya divizionunun qərargah rəisi-divizion komandirinin müavini, sonra 888 nömrəli hərbi hissədə zenit artilleriya divizionunun komandiri, HHM və HHQ komandanlığının sərəncamı ilə 777 nömrəli hərbi hissənin artilleriya divizionunun komandiri, haubitsalı artilleriya divizionunun komandiri, 877 nömrəli hərbi hissənin artilleriya rəisi vəzifələrində çalışıb. X.İbrahimov 1999-2000-ci illərdə Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyicisi olub, 2000-2003-cü illərdə isə 930 nömrəli hərbi hissə komandirinin müavini, 2003-2004-cü illərdə bu hərbi hissədə komandirin maddi-texniki təminat üzrə müavini, MTT bölmə rəisi, 2004-2009-cu illərdə 005 nömrəli hərbi hissənin komandiri, 2009-cu ildə 915 nömrəli hərbi hissənin komandiri vəzifələrini icra edib.*

*Ordu quruculuğundakı xidmətləri “Hərbi xidmətlərə görə”, “Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)” yubiley medalları, “Hərbi xidmətdə fərqlənməyə görə” İİİ dərəcəli, Azərbaycan Silahlı Qüvvələrində uzunmüddətli xidmətinə görə “Qüsursuz xidmətə görə” İİ dərəcəli, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008) yubileyi” medalları ilə təltif olunmuş Xeyrulla İbrahimovun leytenantlıqdan başlayan yolu polkovnik-leytenant rütbəsində tamamlanıb”.*

Və beləcə Xeyrulla uzun müddət xidmət etdiyi ordudan aralanmışdı. Amma Milli Qəhrəman general Polad Həşimovun, eləcə də həmin gün mərd oğullarımızın qəhrəmancasına şəhidlik zirvəsinə qovuşmaları ona çox təsir etmişdi. İtkilər onu ağrıdırdı. Odur ki, yenidən silaha sarılıb könüllü olaraq Vətən torpaqlarının işğaldan azad olunması uğrunda mübarizəyə qoşuldu. Cəbrayıl, Füzuli, Suqovuşan, Hadrut, Zəngilan, Şuşa, digər kəndlərimizin işğalçılardan təmizlənməsində yaxından iştirak etdi, böyük hünər göstərdi. Və günlərin birində snayperin gülləsinə tuş gəldi... Oktyabrın 26-da bayraqla Şuşa zirvəsinə qalxarkən şəhid oldu... Ölümündın sonar Xeyrulla İbrahimov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə” medallarına layiq görüldü.

Şəhid zabit nümunəvi bir ailədə böyüyüb tərbiyə almışdı. Atası Mais kişini uzun müddətdir tanıyırıq. İsmayıllı rayonunun Basqal qəsəbəsində anadan olmuş Mais İbrahimov ömrü boyu xeyirxah əməllərlə məşğul olub. Bunun nəticəsidir ki, ailəsində atasının adını verdiyi Xeyrulla kimi igid, qəhrəman, nər oğul böyümüşdü.

Oktyabrın 26-da yaşadığı bütün məhəllə, qohum-əqrəba, qohumlar, yaxınlar, silah dostları, bütün Basqal eli Xeyrullanın Şəhidlər xiyabanındakı dəfninə yığışdı, el qaydasınca torpağa tapşırdı, şəhidliyinə şahidlik etdi. Xeyrullanı üçrəngli Azərbaycan bayrağına büküb ölümsüzlüyə doğru getdiyi yola uğurladılar.

Basqal camaatı hər zaman öz igid, cəsur, qorxmaz, Azərbaycan uğrunda özünü od içinə atan igid oğulları ilə fərqlənib. Birinci Qarabağ müharibəsində Vətən uğrunda qəhrəmanlıqla həlak olan İbrahim Hüseynov və Rəmzi Novruzov kimi...

Danışmağa sözümüz, yeriməyə taqətimiz qalmayıb, beynimizi Milli Qəhrəman, mərhum telejurnalist Alı Mustafayevin yazdığı misralar döyəcləyir:

*Baxıram dünyanın bu gərdişinə,*
*Dəli bir ağlamaq keçir könlümdən!*

Xeyrullanın dəfnində çəkilən şəkillərə baxırıq. Dəfnə gələnlər sanki ürəklərini tabutla birgə göndərirdilər qəbir evinə. Atası Mais kişi də, anası Xalidə xanım da, qardaşı Zaur da, bacısı İlhamə də, övladları Ləman və Anar da sanki bir gecənin içində bir əsr qocalmışdılar, belləri bükülüb, gözləri zəifləmişdi. Bu ağrı-acını onu çəkənlərdən başqa kimsə bilməz!

Bəlkə də Xeyrulla tabuta sarılmış dostları, atası, anası ilə söhbət edib deyirdi: “Məndən nigaran qalmayın. Mən ayağa qalxacam, yarama torpaq tökün!” Bəlkə elə dostları Xeyrullanın bu son sözlərini, arzusunu eşidib Şəhidlər xiyabanında, qızılı payızın sevgililəri qoynuna alıb, sevgilərə sığal çəkdiyi, qaranquşların bir eldən uzaqlaşaraq başqa bir eldə məskunlaşdığı bir vaxtda müqəddəs qəbiristanlıqda bir məzar qazdırıb, Xeyrullanın qanlı yarasını sarımaq üçün onu torpağa tapşırdılar?! Bəlkə elə bu gündən sonra Xeyrulla ilə birgə arzuları torpağa gömülən ailəsi, yaxınları, dostları o məzarın yolçusu olacaqlar?! Bəlkə onların ən böyük rahatıq tapdıqları ünvan da, məkan da Xeyrullanın müqəddəs torpaqda uyuyan məzarıdır. Bəlkə nə vaxtsa dünya etdiyi ədalətsizliyə görə Şəhid qanından utanacaq?! Bəlkə, bəlkə, bəlkə də!!!

**Daşdəmir ƏJDƏROĞLU,**
**“Azərbaycan”**

## Tovuzda “Vətən Müharibəsi Qəhrəmanı” Orxan Cabbarovun xatirəsi ehtiramla yad edilmişdir

İkinci Qarabağ savaşında tarixi Zəfərin əldə olunmasında tovuzlu əsgər və zabitlərimiz də yüksək peşəkarlıq və qəhrəmanlıq göstərmişlər. Onların sırasında canlarından keçərək şəhidlik zirvəsinə yüksələnlər çoxdur. Belə hərbiçilərdən biri də kiçik gizir Orxan Rövşən oğlu Cabbarovdur.



Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə, işğal olunmuş ərazilərin azad olunması zamanı döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, eləcə də hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Orxan Cabbarov Prezidentin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülmüşdür, Orxan Cabbarov, həmçinin dövlət başçısının 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

Bu günlər Tovuz rayon rəhbərliyi qəhrəman şəhidin ailəsinə baş çəkmiş, ictimayyət nümayəndələri və ailə üzvləri ilə birlikdə onun dəfn olunduğu qəbiristanlıqda məzarını ziyarət etmişdir. Orxan Cabbarovun əziz xatirəsi ehtiramla yad olunmuş, dualar oxunmuş və məzarüstü abidəsi önünə tər gül dəstələri qoyulmuşdur.

Ziyarətçilər Vətən uğrunda canından keçən qəhrəman Orxan Cabbarovun döyüşlərdə göstərdiyi şücaətdən danışmış, onun keçdiyi şərəfli həyat yolunun hər bir tovuzlu gənc üçün örnək olduğunu qeyd etmişlər.

**Sabir ƏLİYEV,**
**“Azərbaycan”**

## Şəhid Ruslan Tağıyevin döyüş yoldaşları onun ailəsini ziyarət ediblər





Vətən müharibəsində öz borcunu şərəflə yerinə yetirərək şəhidlik zirvəsinə ucalan İsmayıllı sakini, polkovnik-leytenant Ruslan Tağıyevin ailəsi onun döyüş yoldaşları tərəfindən ziyarət olunub.

AZƏRTAC xəbər verir ki, döyüş yoldaşları şəhid zabit barədə öz xatirələrini danışıb, onunla fəxr etdiklərini söyləyiblər. Ruslan Tağıyevi hamıya sevdirən onun mehriban olduğu qədər tələbkarlığı, döyüş ərəfəsində qısa zamanda öz əsgərlərində böyük ruh yüksəkliyi yaratmaq bacarığı olduğunu söyləyən yoldaşları onun yüksək peşəkarlığı barədə də danışıblar. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan qələbənin həm də Ruslan Tağıyev kimi Vətənini sevən, peşəkar zabitləri olan Silahlı Qüvvələrimizin şücaətinin nəticəsi olduğu vurğulanıb. Şəhid zabitin valideynləri onları ziyarət etdikləri üçün minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, Azərbaycan Ordusunun polkovnik-leytenantı Ruslan Tağıyev Aprel döyüşlərində də peşəkarlıqla vuruşub. Ötən il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Kəlbəcər, Tərtər, Suqovuşan döyüşlərində tabeliyində olan hərbi hissənin önündə şərəflə vuruşub və noyabrın 4-də Laçın istiqamətindəki döyüşlərdə şəhid olub. Ruslan Tağıyev ailəli idi, 3 övladı var.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda”, “İgidliyə görə”, “Laçının azad olunmasına görə” medalları ilə təltif olunub. Şəhid zabit indi II Fəxri xiyabanda uyuyur. Bəli, polkovnik-leytenant Ruslan Tağıyev və onun kimi qəhrəman zabit və əsgərlərimizin qanı ilə otuz illik işğaldan sonra bənzəri olmayan Zəfər salnaməsi yazıldı. O salnamə ki, min illər boyu qürurla vərəqlənəcək, fəxrlə anılacaq.

## “Vətən yaxşıdır” onlayn respublika mahnı müsabiqəsinə başlanılıb

**Təhsil Nazirliyinin dəstəyi və Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin təşkilatçılığı ilə “Vətən yaxşıdır” adlı onlayn respublika mahnı müsabiqəsinə start verilib.**




Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müsabiqə yanvarın 15-dən fevralın 15-dək davam edəcək.

Uşaq-gənclər inkişaf mərkəzlərinin dərnək üzvləri arasında keçirilən müsabiqənin təşkilində əsas məqsəd Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Xudayar Yusifzadə və onun timsalında bütün şəhidlərin xatirəsini böyük ehtiramla yad etmək, uşaq və gəncləri hərbi vətənpərvərlik ruhunda tərbiyələndirmək, istedadlı dərnək üzvlərini aşkar etməkdən ibarətdir.

Onlayn platformada təşkil olunan müsabiqə xalq mahnıları (muğam, təsnif) və bəstəkar mahnıları (estrada) nominasiyaları üzrə 2 yaş qrupunda (7-14, 15-20) keçirilir. Müsabiqəyə hər yaş qrupu üzrə 1 iştirakçı 1 nominasiya üçün qatıla bilər. Təqdim olunan videogörüntülər aydın və keyfiyyətli olmalı, mahnıların ifa müddəti 3-4 dəqiqədən çox olmamalıdır. Mahnılar minusla və ya akapella oxuna bilər.

Müsabiqədə iştirak etmək istəyənlər özləri barədə məlumatı (adı, soyadı, ata adı, təvəllüdü, məşğul olduğu müəssisə, şəhər, rayon, əlaqə nömrəsi) və nominasiyalar üzrə hazırladıqları videogörüntüləri grbye@mk.edu.az elektron ünvanına və ya (+994) 55 539 55 22 “WhatsApp” telefon nömrəsinə göndərməlidirlər. Müsabiqə qalibləri və fəal iştirakçılar Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin diplomları ilə təltif olunacaqlar.

Qeyd edək ki, müsabiqə ilə bağlı sualı olanlar (+994) 12 568 42 19, (+994) 55 539 55 22 və (+994) 55 701 46 16 telefon nömrələri ilə əlaqə yarada bilərlər.

## Tarını silaha dəyişərək Vətən müharibəsində iştirak edən şəhidimiz

Ağdam rayonunun Qaradağlı kəndindən olan şəhid İsizadə Elvin Azim oğlu musiqiçi idi. Asəf Zeynallı adına musiqi kollecində təhsil alan Elvin sevimli tarını silaha dəyişərək haqq savaşına qoşularaq Vətən müharibəsində iştirak edib. Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı istiqamətində gedən döyüşlərdə sərrast atıcı kimi düşmənə sarsıdıcı zərbələr endirib.







Şəhidin atası Azim Quliyev oğlunun vətənpərvər gənc olduğunu, Vətən müharibəsində böyük ruh yüksəkliyi ilə döyüşdüyünü deyib: “Elvin 2018-ci ildə kollecə qəbul oldu. 2019-cu ildə könüllü olaraq hərbi xidmətə getdi. İstəyirdi ki, hərbi xidməti başa vurduqdan sonra təhsilini davam etdirsin. Konservatoriyaya da qəbul olmaq istəyirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. Böyük ruh yüksəkliyi ilə döyüşürdü. Döyüş yoldaşları onun qorxmaz, cəsur əsgər olduğunu, sərrast atəş açdığını bildirirlər. Deyirdi ata, düşmən qaçır. Tezliklə qələbə qazanacağıq. Oktyabrın 26-da Füzuli istiqamətində gedən döyüşlərdə şəhid oldu”.

Elvinin arzusu cəbhədən qayıtdıqdan sonra konservatoriyada oxumaq, tar ifaçılığı üzrə tanınmış şəxs olmaq idi. Bütün arzularını, həmçinin canını Vətənə qurban verdi gənc musiqiçi.

Anası Gülbəniz Quliyeva da onun musiqi sahəsi üzrə istedadlı olduğunu deyir: “Elvin uşaqlıqdan hamının sevimlisi idi. Çox ağıllı, tərbiyəli, nümunəvi uşaq olub. Musiqiyə böyük maraq göstərirdi. Tar ifaçılığı üzrə fitri istedada malik idi. Böyük arzuları vardı. Arzuları yarımçıq qaldı. Bizim üçün çox ağırdır, amma onunla fəxr edirik. Ucadan ucadır, zirvədədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Könül Quliyeva qardaşı ilə bağlı şirin xatirələrinin olduğunu deyir: “Məktəbə bir gedib-gələrdik, dərslərimdə həmişə mənə köməklik edirdi. Nə çətinliyim olsa, yanımda olardı. Həmişə bir-birimizlə dərdləşərdik. Sanki dost idik. Şəhid olandan sonra dəfələrlə yuxuma girib, mənə təsəlli verib”.

Şəhid Elvin İsizadə Vətən müharibəsində göstərdiyi şücaətə görə ölümündən sonra “Vətən uğrunda” və “Xocavəndin azad olunmasına görə” medallarla təltif edilib.

## “Şəhidlik zirvəsi” layihəsinin ilk buraxılışı Vüsal Babayevə həsr olunub

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2 nömrəli filialı şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq məqsədilə “Şəhidlik zirvəsi” adlı layihəyə start verib.**



İdarədən AZƏRTAC-a bildirilib ki, kitabxana ilk olaraq şəhid baş leytenant Vüsal Babayevə həsr olunmuş videoçarx hazırlayıb.

Videoçarxda qeyd edilir ki, Vüsal Sübbuh oğlu Babayev 1992-ci il yanvarın 8-də Bakı şəhərinin Pirallahı rayonunun Pirallahı adasında anadan olub. O, Pirallahı rayon 186 nömrəli tam orta məktəbini bitirib.

Vətənpərvərlik ruhu, torpaqlarımızın azadlığı arzusu onun gələcək taleyini müəyyənləşdirib və Vüsal elə həmin il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Hərbi məktəbdə oxuyan zamanlarda da Vüsal tərbiyəsi, savadı, ağlı, məsuliyyəti və səriştəsi ilə fərqlənib. 2014-cü ildə hərbi məktəbi leytenant rütbəsi ilə bitirib. Daha sonra baş leytenant rütbəsinə layiq görülüb. Həmin il Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə daxil olub. 2015-ci ildə Yerüstü artilleriya taqım komandiri kursunu bitirib.

Vüsal Babayev 2015-ci ildə Goranboy rayonunda “N” saylı hərbi hissədə, sonuncu dəfə, 2018-ci ildə isə Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində ağır artilleriya hissəsində komandir vəzifəsində xidmət göstərib. Xidmət müddətində əsgərlərinin, iş yoldaşlarının sevgisini, rəğbətini qazanıb. Əsgərlərə qarşı tək komandir deyil, həm də ata münasibəti göstərərək, hər zaman onların qayğısına qalıb. Bu müddətdə məsuliyyətli, peşəkar hərbçi mütəxəssis kimi fəxri fərman və medalla təltif olunub. Vüsal bir çox hərbi təlimlərdə də iştirak edib.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan kimi Vətəni canından artıq sevən cəsur zabit öz vəzifə borcunu yerinə yetirmək üçün ön cəbhəyə yollanır. Cəsur komandir, nümunəvi ailə başçısı Vüsal Babayev 2020-ci il oktyabrın 21-i Füzuli rayonunun Gecəgözlü kəndində yaralı döyüş yoldaşını xilas edərkən yanına mərmi düşməsi nəticəsində qəhrəmancasına ən ali məqama - şəhidlik zirvəsinə ucalır.

Azərbaycanın bütövlüyü uğrunda, torpaqlarımızın qorunmasında canlarından keçmiş şəhidlərimizin ömür yolu gənclərimizə örnəkdir. Hər bir Azərbaycan vətəndaşı öz milli qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan çox şeyləri öyrənməlidir.

